**Əli Əhmədov: “Davos Forumu Azərbaycanın dünyaya açılması üçün gözəl bir imkandır”**



Bax 4

**Prezident İlham Əliyev Davos Forumunda Azərbaycanın yeni hökumətinin prioritetlərini açıqlayıb**




Bax 2

**Ermənistan işğal olunmuş ərazilərimizdəki abidələri “bərpa” etmək adı altında erməniləşdirmə siyasəti aparır**




Bax 5



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 014 (5979) 26 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Çoxsahəli islahatlar: nəticələr göz önündə

## İlham Əliyev: “Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir”





## Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvü qəbul olunmasından 19 il ötür

Azərbaycanın Avropa Şurasına üzv kimi qəbulu ölkəmizin beynəlxalq münasibətlər sistemindəki mövqeyinin formalaşmasında önəmli rol oynayıb. Müstəqilliyinin ilk illərində ağır daxili və xarici böhran yaşayan Azərbaycan bu beynəlxalq təşkilata tamhüquqlu üzv olmaq üçün çətin yol qət edib. Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin tarixi 1992-ci ildən başlayıb. Həmin il yanvarın 24-də Azərbaycan parlamenti “xüsusi dəvət edilmiş qonaq” statusu almaq üçün Avropa Şurasına müraciət edib. 1996-cı il martın 17-18-də Azərbaycan Avropa Şurasının Qanun vasitəsilə Demokratiya üzrə Avropa Komissiyasına üzv qəbul olunub....

Bax 6

## Abşeronda iki məktəbli qızı vuran sürücü tutulub

Abşeron rayonunun polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində azyaşlıların xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsini törətməkdə şübhəli bilinən sürücü tutularaq istintaqa cəlb edilib.



Bax 7

## “Barselona” 17 yaşlı dünya çempionunu alır



“Barselona” heyətini yeni futbolçu ilə gücləndirməyə hazırlaşır. İspaniya mətbuatının yazdığına görə, Kataloniya klubu “Koritiba”nın 17 yaşlı müdafiəçisi Yan Kouto ilə razılaşıb. La Liqa təmsilçisi braziliyalı futbolçu üçün 5 milyon avro xərcləməli olacaq.

Bax 16

## Türkiyədə zəlzələdən zərər çəkənlər arasında Azərbaycan vətəndaşı yoxdur




Azərbaycanın Türkiyədəki səfirliyində Elazığ vilayətində baş vermiş dağıdıcı zəlzələ ilə bağlı yaradılan “qaynar xətt” fəaliyyətini davam etdirir. Səfirlikdən AZƏRTAC-a verilən məlumata görə, hadisədən dərhal sonra qurulan “qaynar xətt”lə əlaqə saxlayan aidiyyəti üzrə hökumət qurumlarının təmsilçiləri və KİV nümayəndələri vəziyyətlə maraqlanıblar.

Bax 6

**Ehsan Zahidov: “Pozucu qüvvələr öz çirkin niyyətlərinə heç vaxt çata bilməyəcəklər”**




Bax 7

**Sarkisyanın aqibəti Paşinyanın da başında çatlayacaq**



Bax 15

**Daşaltı əməliyyatından 28 il ötür**



Bax 13

# Prezident İlham Əliyev Davos Forumunda Azərbaycanın yeni hökumətinin prioritetlərini açıqlayıb




***Azərbaycanın yeni hökuməti əsas diqqətini artan əhalidən ibarət olan böyük çağırış üzərinə yönəldəcək. Buna görə də bizim iqtisadi artımımız əhalinin artımına uyğun gəlməlidir. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bunu Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasında deyib.***

Moderatorun "Həyatlarının yaxşılaşdırılmasını istəyən azərbaycanlılar üçün Siz yeni hökumətin onlara nələr verəcəyinə ümid edirsiniz, onlar növbəti bir və ya iki ildə hansı fərqləri müşahidə edəcəklər" sualını cavablandıran dövlətimizin başçısı müstəqillik illərində Azərbaycanda əhalinin sayının 7 milyondan 10 milyona qədər artdığını, artımın hər il 100 min nəfərdən çox olduğunu diqqətə çatdırıb. "Bu isə o deməkdir ki, bizə ən azından ildə 100 min iş yeri lazımdır. Bu, asan deyil. Buna görə də hökumət bu məsələ ilə məşğul olacaq. Biz yoxsulluğu bugünkü səviyyədə - 5 faizdən aşağı səviyyədə saxlamağa çalışacağıq. Həmçinin bizim birbaşa xarici borcun azaldılması ilə bağlı uzunmüddətli strategiyamız var. Bu gün bu borc çox aşağıdır, ümumi daxili məhsulun 17 faizini təşkil edir. Lakin bizim hədəfimiz onu ümumi daxili məhsulun 10 faizinə qədər endirməkdir", - deyə dövlətimizin başçısı bildirib. Hökumətin inflyasiyanı aşağı səviyyədə saxlamaq üzərində də işləyəcəyini deyən Azərbaycan Prezidenti qeyd edib ki, insanların gəliri həmişə inflyasiyanı üstələməli, habelə yaradılan yeni iş yerləri demoqrafik artımdan daha çox olmalıdır.

Xatırladaq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar sayəsində son 16 ildə Azərbaycanda 2,2 milyondan çox yeni iş yeri yaradılıb, orta əməkhaqqı 7,5 dəfə, minimum pensiya isə 10 dəfə artıb. Təkcə 2019-cu ildə iki böyük sosial paket reallaşdırılıb. Minimum əməkhaqqı 93 faiz, minimum pensiya 72 faiz, sosial müavinət və təqaüdlər orta hesabla iki dəfə artırılıb. Bu və digər tədbirlər ümumilikdə 4,2 milyondan çox vətəndaşı əhatə edib. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması Azərbaycan dövləti üçün prioritet olaraq qalmaqdadır.

Son dövrlərdə vergi və gömrük orqanlarında aparılmış islahatlar nəticəsində xəzinəyə plandan əlavə 1 milyard manat vəsaitin daxil olması çox geniş sosial paketin həyata keçirilməsinə imkan yaradıb.

# Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru ADA Universitetində mühazirə oxuyub





Yanvarın 25-də Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MGİMO) rektoru, akademik Anatoli Torkunov ADA Universitetində mühazirə ilə çıxış edib.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, A.Torkunov müasir beynəlxalq münasibətlər sahəsində cərəyan edən yeni proseslərlə bağlı analizlərini diplomatik korpusun nümayəndələri, tələbələr və bu sahəni tədqiq edən peşəkarlarla bölüşüb.

Tədbirdə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev MGIMO-nun yalnız beynəlxalq münasibətlər sahəsində deyil, həm də dəqiq elmlər sahəsində mütəxəssislər yetişdirdiyini diqqətə çatdırıb. Hafiz Paşayev deyib: "ADA Universiteti MGIMO Universiteti ilə əməkdaşlığa önəm verir. Bu səbəbdən də MGIMO ilə maliyyə sahəsində ikili diplom proqramı təqdim edərək bu sahədə mütəxəssislərin yetişdirilməsini hədəfləyirik".

Daha sonra MGIMO Universitetinin rektoru akademik Anatoli Torkunov çıxış edərək ADA Universiteti ilə birgə əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, MGIMO Universitetinin beynəlxalq münasibətlərlə yanaşı, aqrar, idman və digər sahələrdə də mütəxəssislər yetişdirmək üçün əməkdaşlığı genişləndirdiyini, eyni zamanda, süni intellekt sahəsini də tədqiq etdiyini diqqətə çatdırıb. "Müasir beynəlxalq münasibətlər sahəsində baş verən parametr dəyişikliyini nəzərə alaraq, bu dövrü postbipolyar dövr kimi də xarakterizə etmək olar", - deyə akademik Torkunov qeyd edib.

Öncəki illərdə müşahidə etdiyimiz klassik diplomatiya ilə hazırkı diplomatiya anlayışları arasında böyük fərqin olduğunu bildirən akademik informasiya sahəsində özünü göstərən texnoloji inqilab barədə ətraflı məlumat verib. O, informasiya sahəsindəki inqilabın süni intellekt anlayışını da özündə ehtiva etdiyini bildirib.

# Çoxsahəli islahatlar: nəticələr göz önündə

## *Prezident İlham Əliyev: “Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir”*

Artıq əldə olunan uğurlar, iki il öncə - 2018-ci ilin prezident seçkiləri ərəfəsində dövlət başçımızın verdiyi nəhəng və çoxşaxəli islahatlarla bağlı anonslarının bariz sübutudur.

### Bəs bu illər ərzində nələr baş verdi?

Seçkilərdən sonra andiçmə mərasimində görüləcək işlərlə bağlı Prezident tərəfindən göstərişlər verildi, yeni yanaşmanın konturları müəyyən edildi. Prezident İlham Əliyev islahatlarla bağlı çox ciddi işlərin aparılmasını bildirdi: “İslahatların davam etdirilməsi üçün çox ciddi iş aparılmalı, daim inkişafda, axtarışda olmalıyıq. Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Son illər ərzində, müxtəlif mərhələlərdə islahatlar aparılıb və bu islahatlar nəticəsində, ölkəmiz inkişaf edib. Son 15 il ərzində, iqtisadi baxımdan, dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır”.

### Prezident İlham Əliyev sözünə və vədinə sadiq qalan dövlət başçısı imicini qazanıb

Bu faktor son 16 ildə özünü dəfələrlə isbatlayıb. Son 16 il ərzində, Azərbaycanda həyat günbəgün dəyişir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yeniləşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır. Bu yerd Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: “Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.”

16 il öncə deyilənlər bu gün öz nəticəsini verib. Bu gün Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, son 16 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

Dövlət başçısı əldə olunan nailiyyətlərlə bağlı dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində bildirib ki, Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib: “2019-cu il sona yaxınlaşır və əlbəttə ki, il ərzində görülmüş işlər, ölkəmizdə və regionda baş vermiş hadisələr çox ciddi təhlil tələb edir. Bir şeyi tam dəqiqliklə deyə bilərəm ki, ölkəmiz üçün bu il uğurlu olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr həyatda öz əksini tapıb. Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib. Bu inkişaf imkan verir ki, biz gələcək illərdə də öz addımlarımızı düzgün ataq və 2020-ci il də ölkəmiz üçün uğurlu olsun”.



***Hər il başa çatarkən, “Növbəti ilə hansı uğurlarla qədəm qoyuruq?” sualını veririk və bu sualı cavablandırmaq üçün ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial, mədəni və demokratik inkişafı yönündə həyata keçirilən islahatlar və xarici siyasət sahəsində qazanılan uğurları bir daha təhlil etmək zərurəti duyulur. Bu söz-gəlişi deyilən söz deyil, real faktlara əsaslanan nəticələrdir. Həmin uğurlar, əldə edilən nailiyyətlər, birmənalı olaraq, ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü və qətiyyətli siyasətinin məntiqi göstəricisidir.***

### Son 16 ilin uğur reallıqları - faktlar, rəqəmlər...

Son 16 ildə sürəli inkişaf yolu keçən Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Belə ki, 16 il öncə, 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 50 milyard dollara yüksəlib. Sözsüz ki, bu ölkə Prezidenti İlham Əliyevin düşünülmüş uğurlu siyasəti nəticəsində əldə olunub.

Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, son 16 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

Son 16 ildə Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Prezident İlham Əliyevin bu islahatlarının uğurlu gedişini şərtləndirən əsas səbəb onların təməl prinsiplərinin düzgün müəyyənləşdirilərək hazırlanması və qlobal çağırışlardan lokal gerçəkliyədək bütün tələbşərtlərə uyğunlaşdırılmasıdır.

### Qısqanclıqla qarşılanan həqiqətlər

Göründüyü kimi, bütün çətinliklərə baxmayaraq, məhz ölkə Prezidentinin düşünülmüş siyasətinin nəticəsidir ki, hətta böhranlı illərdə Azərbaycan sürətlə inkişaf edə bilir. Belə ki, iqtisadi potensialın gücləndirilməsi, müasir sosial infrastrukturun yaradılması, minlərlə istehsal müəssisəsinin, nəhəng zavod və fabriklərin, yeni iş yerlərinin açılması, əmək haqlarının, pensiyaların və müavinətlərin ardıcıl şəkildə artırılması əhalinin sosial durumunun əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Amma buna baxmayaraq, bəzi daxili siyasi qruplar və xarici dairələr, onlara qulluq edən mətbuat əsassız, qərəzli şəkildə həyata keçirilən siyasəti ləkələməyə və onun əhəmiyyətini azaltmağa çalışır. Bu mənada, bir sıra müxalifət funksionerləri, mətbuatı Azərbaycanda əmək haqlarının, pensiyaların və təqaüdlərin artırılması ilə bağlı son sərəncamları öz maraqlarından irəli gələn siyasi manipulyasiya obyektinə çevirmək üçün müəyyən cəhdlər göstərirlər. Əgər ölkəmizdə son 16 ildə əmək haqlarının mütəmadi qaydada yüksəldilməsini nəzərə alsaq, bu iddianın düzgün olmadığını görmüş olarıq. Bu baxımdan, elementar bir müqayisəni vermək istərdim. Əgər Azərbaycanda 2013-cü ilin dövlət büdcəsi 25 milyard dollar təşkil edirdisə, Ermənistanın dövlət büdcəsi isə 2,5 milyard dollardır. Bu, o deməkdir ki, Azərbaycanın dövlət büdcəsi Ermənistandan 10 dəfə çoxdur. Eyni zamanda, Gürcüstanın dövlət büdcəsi 4,8 milyard dollardır. Bu da, ondan xəbər verir ki, Azərbaycanın dövlət büdcəsi Gürcüstandan 5 dəfə çoxdur.

Bu günlərdə İsveçrənin Davos şəhərində “Birgə və davamlı dünyanın maraqlı tərəfləri” mövzusunda keçirilən 50-ci Dünya İqtisadi Forumunda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev forum çərçivəsində dünyanın siyasi və iqtisadi elitalarının ən tanınmış nümayəndələri ilə görüşlər keçirdi, forum çərçivəsində “Strateji baxış: Avrasiya” mövzusunda keçirilən panel iclasında iştirak etdi. Bu mötəbər forumda da Prezident İlham Əliyev beynəlxalq aləmə çatdırdı ki, Azərbaycaq müstəqil siyasət yürüdür və bu siyasətin əsas məqsədi ölkəmizi gözügötürməyənlərə inkişaf və tərəqqi reallıqlarını göstərməkdir.

Bu gün ölkəmizin bu uğurlarını həzm edə bilməyən bəzi qərəzli qurum və təşkilatlar anlamalıdırlar ki, Azərbaycana qarşı nə qədər qərəzli olsalar da, faktlar qarşısında geri çəkilməyə məcburdurlar və məcbur olacaqlar. Belə ki, Azərbaycan hər il əldə etdiyi nailiyyətlərlə dünyanın sivil, demokratik və dinamik inkişaf edən ölkələri sırasında yer aldığını konkret faktlar əsasında dünyaya sübut edir.

**RƏFİQƏ KAMALQIZI**

# Əli Əhmədov: "Davos Forumu Azərbaycanın dünyaya açılması üçün gözəl bir imkandır"

***Dünyanın ən mötəbər iqtisadi forumlarından sayılan Davos Beynəlxalq İqtisadi Forumu artıq neçə ildir ki, Azərbaycan Prezidenti İlham Əliyevin yaxından iştirak etdiyi ümumdünya qurumları sırasında mühüm yer tutur. Azərbaycanın Forumlarda fəal iştirakı ölkəmizin tanıdılmasında, dünya iqtisadi birliyinə yaxından inteqrasiyasında, tariximizin, mədəniyyətimizin tanıdılmasında əvəzedilməz rol oynayır. Ayrıca vurğulanmalıdır ki, Davos Beynəlxalq İqtisadi Forumu ənənəvi olaraq dövlət rəhbərlərinin, dünyanın aparıcı şirkətlərinin, tanınmış siyasətçilərin iştirakı ilə keçirilən ən böyük iqtisadi diskussiya meydanıdır.***



Burada müasir beynəlxalq iqtisadi problemlər, iqtisadiyyatda və texnologiyada yeni meyllər və nailiyyətlər müzakirə edilir, ayrı-ayrı ölkələrin iqtisadi inkişafının əsas göstəriciləri barədə hesabatlar hazırlanır. Təşkilatın daha bir xüsusiyyəti ölkələrə öz nailiyyətlərini təqdim etmək və beynəlxalq miqyasda xüsusi rola malik olan şirkətlərlə işgüzar əlaqələr qurmaq imkanlarını yaratmasıdır. Başqa sözlə ifadə etsək, Davos Beynəlxalq İqtisadi Forumu həm də böyük imkanlar meydanı kimi səciyyələndirilə bilər. Bu baxımdan sözügedən mötəbər iqtisadi toplantıda iştirak etmək hər bir iştirakçı üçün mühüm avantaj kimi qəbul olunur. SİA-nın məlumatına görə, bu fikirləri Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov "Davos Beynəlxalq İqtisadi Forumu: Azərbaycanın dünyaya açılışının yeni imkanları" adlı məqalədə bildirib.

Əli Əhmədov qeyd edib ki, Azərbaycan Prezidentinin bir çox illərdir dalbadal Davos Beynəlxalq İqtisadi Forumuna qatılması bir yandan ölkəmizin onun imkanlarından səmərəli şəkildə faydalanmaq istəyini nümayiş etdirməklə yanaşı, həm də dünyanın aparıcı şirkətlərinin Azərbaycana, onun artan iqtisadi imkanlarına artan marağın göstərir. Baş Nazirin müavini diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin Forum çərçivəsində keçirdiyi görüşlər həm say, həm də rəngarənglik baxımından yuxarıda söylənən fikri, düşünürəm ki, tamamilə təsdiqləyir. Bu görüşlərin ortaya qoyduğu daha əhəmiyyətli həqiqət isə cənab İlham Əliyevin Forumun ən çox arzuolunan və hörmət bəslənilən qonaqlarından biri olmasıdır. Onunla görüşən və görüşmək istəyən yüksək qonaqların, dünya iqtisadiyyatının nəhənglərinin say çoxluğu deyilənin bariz ifadəsi sayıla bilər. Prezident İlham Əliyevlə görüşmək istəyənlərin və görüşənlərin çoxsaylı olması eyni zamanda Azərbaycana, onun artan iqtisadiyyatına yüksək maraqdan xəbər verir.

Əli Əhmədov vurğulayıb ki, ölkəmizə və onun rəhbərinə yüksək marağın kökündə dayanan bir məqama ayrıca toxunmağa dəyər: "Beynəlxalq İqtisadi Forumun hazırladığı hesabatlarda Azərbaycan bir çox indekslərə görə dünya dövlətləri arasında mötəbər mövqelərə malikdir və son illərin təcrübəsinə istinadən deyə bilərik ki, həmin göstəricilər ildən ilə artır. Azərbaycanın ən islahatçı dövlətlər sırasında olması, rəqabətlilik qabiliyyətinə, infrastrukturun vəziyyətinə görə yüksək göstəriciləri ölkəmizin inkişafının artan dinamikası barədə dünyada, ilk növbədə isə nəhəng şirkətlərin rəhbərlərində aydın təsəvvürlər yaradır. Bu isə öz növbəsində Azərbaycanın iqtisadiyyatına diqqəti artırır, ölkəmizin investisiya cazibədarlığını gücləndirir.

Davosda keçirilən Beynəlxalq İqtisadi Forum istənilən ölkəyə dünyaya açılmaq baxımından geniş imkanlar yaradır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu imkanlardan səmərəli şəkildə istifadə edir. Bu təşkilatın imkanları vasitəsilə ölkəmizin təbliğ edilməsi, Azərbaycanla bağlı həqiqətlərin dünyaya çatdırılması yüksək faydalılıq əmsalı ilə fərqlənir. Ayrıca qeyd olunmalıdır ki, DİF vasitəsi ilə bütün dünya, ilk növbədə isə Azərbaycana, onun iqtisadiyyatına maraq göstərənlər ölkənin birinci şəxsinin təqdimatında lazımi məlumatları əldə edir, inkişaf perspektivləri, planları, gələcəyə dair baxışları ilə tanış olmaq imkanı qazanırlar. Ölkəni tanıtmağın, onun nailiyyətlərini təbliğ etməyin, ölkəyə sərmayə və texnologiyalar cəlb etməyin daha səmərəli formasını təsəvvür etmək mümkün deyil".

Əli Əhmədov bildirib ki, 2020-ci il Davos Forumu Azərbaycandan ötrü daha da əlamətdar və əhəmiyyətli oldu. Forumun rəhbərliyinin qərarı ilə Beynəlxalq İqtisadi Forumun Azərbaycanda regional şöbəsinin yaradılması nəzərdə tutulur. Belə bir təşəbbüsün irəli sürülməsi ölkəmizin Forumun işinə verdiyi töhfənin nəticəsi kimi qiymətləndirilə bilər. Azərbaycan indi dünyanın ən mötəbər iqtisadi diskussiyalar təşkilatının iştirakçısı yox, eyni zamanda təşkilatçılarındandır. Yəqin ki, yaxın zamanlarda Azərbaycanın yeni bir mötəbər tədbirə ev sahibliyi edəcəyinin şahidi olacağıq. Hesab edirəm ki, bu, Prezident İlham Əliyevin beynəlxalq miqyasda əldə etdiyi bir çox yüksək uğurlar içərisində layiqli yer tuta biləcək.

"Beynəlxalq İqtisadi Forum gündən günə inkişaf edən Azərbaycanın və onun iqtisadiyyatının dünyaya açılması üçün gözəl bir imkandır. Prezident İlham Əliyevin səyləri nəticəsində indi bu imkan Azərbaycana yaxınlaşır, başqa formada ifadə etməli olsaq, Azərbaycan özü bu imkana çevrilir. Əminəm ki, ölkəmizi Prezident İlham Əliyevin rəhbərliyi altında neçə-neçə belə uğurlar və nailiyyətlər gözləyir"-deyə, Baş Nazirin müavini vurğulayıb

## 11 ayda muzdla çalışanların əməkhaqqı 623,1 manat olub



2019-cu ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 15,4 faiz artaraq 623,1 manat təşkil edib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, əməkhaqqı neft-qaz sektorunda 3059,7 manat, qeyri-neft-qaz sektorunda 568 manat olub. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 516,5 manat, özəl müəssisələrdə isə 759,7 manat təşkil edib.



## XİN: Azərbaycan qardaş Türkiyəyə hər cür yardım göstərməyə hazırdır

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Türkiyəyə başsağlığı verib. XİN bu barədə məlumatı rəsmi "Twitter" səhifəsində yayıb. Məlumatda deyilir: "Qardaş Türkiyədə baş vermiş zəlzələdə həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və yaralılara Allahdan şəfa diləyirik. Azərbaycan qardaş Türkiyə xalqının kədərini bölüşür, hər zaman onunla birlikdədir və hər cür yardım göstərməyə hazırdır".

## Bu il Azərbaycan 20 irimiqyaslı işgüzar tədbirə ev sahibliyi edə bilər



Bu il ərzində 20 işgüzar tədbirin Azərbaycanda keçirilməsi üçün ölkəmizin namizədliyi irəli sürüləcək. Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, bu barədə Azərbaycan Konqreslər Bürosunun direktoru Sevda Əliyeva Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən X Avrasiya Tədbirlər Forumunda (EFEA) çıxış edərkən bildirib.

O çıxışında böyükmiqyaslı beynəlxalq tədbirlərin Azərbaycan turizminin inkişafına verdiyi töhfələr, ölkəmizdə işgüzar tədbirlər sənayesinin inkişafı üçün görülən işlər və mövcud işgüzar turizm imkanları barəsində məlumat verib. Tədbirdə Rusiyanın 20 bölgəsindən və 8 xarici ölkədən işgüzar tədbirlər sahəsində ixtisaslaşmış assosiasiyalar və birliklərin 500-dən çox nümayəndəsi bir araya gəlib. Forumda işgüzar tədbirlər sənayesinin müxtəlif istiqamətləri, müasir tendensiyalar, təbliğat və digər məsələlər barəsində panel müzakirələr keçirilir.

## Azərbaycan deputatları AŞPA-nın qış sessiyasında iştirak edəcəklər

***Yanvarın 27-dən 31-dək Fransanın Strasburq şəhərində Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası keçiriləcək. Milli Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sessiyada Milli Məclisin AŞPA-dakı daimi nümayəndə heyətinin rəhbəri, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edəcək. Nümayəndə heyətinə deputatlardan Sevinc Fətəliyeva, Sahibə Qafarova, Rafael Hüseynov, Asim Mollazadə, Sabir Hacıyev və Naqif Həmzəyev daxildir.***

Sessiyada Büronun və Daimi Komitənin görülmüş işlərə dair hesabatı dinləniləcək, Belarusda keçirilmiş parlament seçkilərinin nəticələri, Polşada demokratik institutların fəaliyyəti, Avropada jurnalistlərin təhlükəsizliyi, media azadlığı və digər mövzularda müzakirələr aparılacaq. Azərbaycan deputatları müzakirələrdə çıxış edəcək, gündəlikdəki məsələlərə münasibət bildirəcəklər. Sessiya çərçivəsində yanvarın 28-də Azərbaycan nümayəndə heyətinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir də keçiriləcək.






# Davos forumu sərmayə cəlb edilməsi üçün platformadır

***Dünya İqtisadi Forumunda, Davosda iştirak etməyin, ikitərəfli əlaqələr yaradılması üçün danışıqlar aparmağın və çoxtərəfli formatda müəyyən platforma müzakirələrində iştirak etməyin Azərbaycan üçün əhəmiyyəti, sözsüz ki, böyükdür və danılmazdır. Nəzərə almaq lazımdır ki, forumda dünyaca məşhur şirkətlər, ən böyük dövlətlər belə iştirak edirlər və bu baxımdan ölkəmizin və ölkə başçımızın iştirakı, əlbəttə ki, təqdirəlayiqdir.***

Hər ilin əvvəlində, daha dəqiq desək, 20-24 yanvar tarixlərində keçirilən forum bu il də maraq dairəsindədir. Əks halda, bu forumda 50-dən artıq dövlətin başçısı iştirak etməzdi. Onu da qeyd etmək yerinə düşərdi ki, builki Dünya İqtisadi Forumuna sərvəti 5 milyard dollardan artıq olan 100-dən çox milyarder gəlib və öz biznesini, öz şirkətini təmsil edir. Əlbəttə ki, belə iş adamlarının-biznesmenlərin milyarderlərin forumda iştirak etməkdə şəxsi maraqları və biznes strategiyaları da təkzib edilə bilməz. Çünki əlaqələrini genişləndirmək, dövriyyəsini artırmaq, kapitalını böyütmək hər bir iş adamlarının maraq dairəsindədir. Bu səbəbdən də, milyarderlərin belə bir foruma - Davosa toplaşması tamamilə başadüşüləndir.

Təkcə iş adamları deyil, dövlətlər özləri də bu forumda iştirakda maraqlıdırlar. Heç bir dövlət izafi gəlirdən imtina etmək fikrində ola bilməz. Ələlxüsus, Azərbaycan kimi neft, sənaye və kənd təsərrüfatı məhsullarının ixracatçısı olan bir dövlətin belə bir foruma marağı günün reallığıdır. Əbəs yerə deyil ki, Prezident İlham Əliyev hər il bu forumda iştirak edir və qururla deyə bilərik ki, ölkə başçısı forum çərçivəsində də uğurlu görüşlər keçirir. Azərbaycan Prezidentinin Davosda keçirdiyi görüşlərin isə Azərbaycan üçün praktik əhəmiyyət daşıdığının, illərdir ki, biz hamımız şahidi oluruq. Şahidi oluruq ki, Cənab Prezidentin bu forumda işdirakı sayəsində, böyük şirkətlərin Azərbaycana investisiya qoymaq üçün marağı durmadan artır. Yəni bu maraq, əslində, ölkəmizə investisiya axını deməkdir və nəticə etibarı ilə Davos forumunu, bu baxımdan, ölkəmizə sərmayə cəlb edilməsi üçün bir platforma da adlandırmaq olar. Ölkə başçısının hər il Davosda iştirakı Azərbaycana sərmayə axınının dinamik şəkildə artımı ilə nəticələnir.

Heç şübhəsiz ki, Dünya İqtisadi Forumunda ölkə başçısının həyata keçirdiyi görüşlər qeyri-neft sektoruna xaricdən investisiya axınını sürətləndirəcək. Bu, artıq proqnoz deyil, reallıqdır. Çünki müxtəlif profilli şirkət rəhbərlərinin, tanınmış, məşhur biznesmenlərin Azərbaycan Prezidenti ilə görüşməyə maraq göstərmələri təsdiq edir ki, onların ölkəmizdə sərmayə qoyuluşu barədə qərarları qətidir. Məhz bu baxımdan, ölkə başçımızın Davosda Dünya İqtisadi Forumda iştirakı və dünyaca məşhur müxtəlif şirkət rəhbərləri ilə görüşü çox böyük əhəmiyyət kəsb edir.

Nəzərə almaq lazımdır ki, dünyaca məşhur şirkət rəhbərləri özləri də Davosda iştirak edir və biznes fəaliyyətini daha da genişləndirmək üçün dünyanın ayrı-ayrı yerlərində mövcud imkanlar və potensiallarla maraqlanır. Onu da qeyd etmək yerinə düşərdi ki, forum çərçivəsində Azərbaycan Prezidentinin fəaliyyəti ölkənin mövcud imkanlarının dünya üçün təqdimatı, məhz bu mənada, daha önəmlidir. Daha dəqiq desək, forum çərçivəsində iş adamları, tanınmış şirkət rəhbərləri ölkəmizin potensialı barədə məlumatları, ölkəmizin imkanlarını şəxsən ölkə başçısının, Prezidentin dilindən eşitmələri daha vacib amildir.

Hadisələrin gedişi, dünyaca məşhur şirkətlərin rəhbərlərinin, iş adamlarının Prezident İlham Əliyevlə görüşmək istəyi və reallaşdırılan görüşlər təsdiq edir ki, aqrar sahədə, sənaye, enerji və qeyri-neft sektorunda ölkəmizə olan maraq çox böyükdür. Ölkəmizin dünya ticarətində dəhliz rolunu olnaması da vacib şərtdir ki, iş adamları bu barədə, məhz Davosda daha müfəssəl məlumat ala bilirlər. Forumda Azərbaycanın iştirakçısı və təşəbbüskarı olduğu bir neçə dəhlizin çox böyük maraqla qarşılandığı və bu barədə müzakirələr aparıldığı heç də təsadüfi deyil. Xüsusilə, nəqliyyat, enerji və logistika mərkəzi olmaq baxımından, Azərbaycanın çox böyük imkan və potensialları Davos Forumunda daha dəqiq və dolğun şəkildə hər kəsə bəyan olur. Bu isə, öz növbəsində, yeniyeni sərmayə qoyuluşlarından tutmuş, daha böyük, qlobal layihələrə qədər bir çox perspektivlərdən xəbər verir. Bir sözlə, Davosda keçirilən forum - Dünya İqtisadi Forumu və bu forumda ölkə başçımızın iştirakı Azərbaycan üçün, xüsusilə, əhəmiyyətlidir və hər birimizin bu forumdan gözləntilərimiz olduqca böyükdür. Çünki sözügedən forum, Prezident İlham Əliyevin bu forumda iştirakı ölkəmiz üçün nikbin proqnozlar vəd verir.

***İnam HACIYEV***

# Ermənistan işğal olunmuş ərazilərimizdəki abidələri “bərpa” etmək adı altında erməniləşdirmə siyasəti aparır




Son vaxtlar işğalçı Ermənistan və Dağlıq Qarabağdakı qeyri-qanuni rejim Azərbaycanın işğal olunmuş ərazilərindəki tarixi və mədəniyyət abidələrini “bərpa” etmək adı altında erməniləşdirmə siyasəti aparır. Bir müddət əvvəl Dağlıq Qarabağın memarlıq incisi sayılan Şuşadakı Yuxarı Gövhər Ağa məscidini “bərpa” edərək buranı “fars mədəniyyət mərkəzi” adlandıran rejim indi də XVIII əsrdə Qarabağ xanlığının qurucusu Pənahəli xan Cavanşir tərəfindən əsası qoyulan Şuşa Qalasını “bərpa” etməyi planlaşdırır. KİV-lərin yaydığı məlumatlara görə, gələcəkdə Ağdərə və Laçın rayonlarında yerləşən, Azərbaycan xalqına məxsus tarixi abidələrə qarşı da bu cür vandallıq ediləcəyi istisna olunmur. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının bəyanatında yer alıb.

Bəyanatda deyilir: “Məlum olduğu kimi, Azərbaycanın işğal altındakı ərazilərində minlərlə mədəni, tarixi, dini abidəmiz erməni təcavüzünün qurbanı olub. Bu abidələrin bir qismi tamamilə yer üzündən silinib. Qalan abidələr isə yararsız vəziyyətə salınıb. Ermənistan torpaqlarımızı işğal etmək, xalqımızı soyqırımına məruz qoymaq, minlərlə insanı öz yurdundan didərgin salmaqla yanaşı, həm də tarixi abidələrimizi məhv edir. Hazırda Ermənistan bu ləkəni öz üzərindən silmək üçün yalançı və saxta “təmir-bərpa” işləri aparır.

Ermənistanın bu abidələri “bərpa” etmək planlarının arxasında duran çirkin məqsədlər təkcə bizi deyil, həm də beynəlxalq təşkilatları düşündürməlidir. Çünki bu tendensiyanın yayılması dünya mədəni-tarixi mirası üçün təhlükədir.

İşğal altında olan ərazilərimizdəki bütün abidələr ata-babalarımız tərəfindən ucaldılıb, bu abidələrin üzərində əcdadlarımızın əl izləri yaşayır. Ermənistanın işğalına son verildikdən və torpaqlarımıza geri qayıtdıqdan sonra bizə miras qalan abidələrimizə yenidən həyat bəxş etmək əsas vəzifələrimizdən biri olacaq. Bütün bunlar Ermənistanın UNESKO qarşısında götürdüyü öhdəliklərə zidd olmaqla yanaşı, bu ölkənin riyakar xislətini, beynəlxalq ictimaiyyəti aldatmaq, öz vandalizm əməllərinə mədəni-sivil don geyindirmək cəhdidir”.

# Pakistan portalı Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı məqalə yayıb


Lahore, Vol. 15 No. 93
NHT
National Herald Tribune
ABC certified — Editor-in-Chief: Ghulam Akbar — Rs. 15/- Pages. 8
Tuesday, January 21, 2020, Jamadi-ul-Awwal 25, 1441 — www.dailynht.com — Rawalpindi, Vol. 14 No. 171

Salient Features of Azerbaijan Elections

Riaz Ahmad Malik

Republic of Azerbaijan is on the path of gigantic overhauling of the system through political transition

Electioneering is gaining momentum with every passing day as the high powered independent Central Election Commission has extended all the required facilities to the contesting candidates

Pakistanın “National Herald Tribune” qəzetində və internet səhifəsində Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə əlaqədar məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, müəllifi Riaz Əhməd Malik olan “Azərbaycandakı seçkilərin özünəməxsus xüsusiyyətləri” sərlövhəli məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) müsəlman dünyasında ilk demokratik ölkə olduğu xatırladılır, müasir Azərbaycanın AXC dövründə əsası qoyulmuş demokratik normaları institutlaşdırdığı bildirilir. Məqalədə 2020-ci il fevralın 9-da keçiriləcək parlament seçkiləri üçün indiyədək yüzlərlə namizədin qeydiyyata alındığı qeyd olunur. Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün namizədlərə bütün lazımi şəraitin yaradıldığı vurğulanır.

Müəllif bu seçki prosesinin ölkədəki siyasi sabitliyə, iqtisadi islahatların davam etməsinə və ümumilikdə demokratik sistemin daha da gücləndirilməsinə töhfə verəcəyinə əminliyini diqqətə çatdırır. Məqalədə, həmçinin seçkiləri müşahidə etmək üçün indiyə qədər iki minə yaxın yerli və xarici müşahidəçinin MSK-ya müraciət ünvanladığı, eyni zamanda, Komissiya tərəfindən Bakıda müstəqil media mərkəzinin təsis olunduğu vurğulanır. Məqalənin tam mətni ilə aşağıdakı linkdən tanış olmaq mümkündür: http://dailynht.com/epaper/-main.php?action=epaper&id=main&page=3&dt=21-01-20.

# Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvü qəbul olunmasından 19 il ötür

***Dünən Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvü qəbul olunmasından 19 il ötdü. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası milli maraqlarını qlobal səviyyədə müdafiə etməklə beynəlxalq təşkilatların işində fəallığı ilə seçilir və təhlükəsizlik problemlərinə tərəfdaş dövlətlərin diqqətini cəlb edir. Müxtəlif maraqların toqquşduğu Cənubi Qafqaz regionunda balanslaşdırılmış xarici siyasət yürüdən Azərbaycan beynəlxalq prinsiplər əsasında ayrı-ayrı dövlətlər və təşkilatlarla bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əlaqələrə üstünlük verir. Belə nüfuzlu təşkilatlardan biri də Avropa Şurasıdır.***



Azərbaycan xarici siyasətində bütün ölkələrlə dostluğa və beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursunda beynəlxalq təşkilatlarla münasibətlərin qurulması və inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir.

1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev respublikada möhkəm təməllər üzərində ictimai-siyasi sabitliyin təmin olunması, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, sürətli iqtisadi inkişafın təmin olunması üçün bütün qüvvələri səfərbər etdi. Regionun nüfuzlu beynəlxalq təşkilatı sayılan Avropa Şurası ilə əməkdaşlıq da həmin dövrdən zəruri məsələ kimi gündəmə gəlmiş, respublikamızın öz maraqlarını qorumaq, ölkə həqiqətlərini dünyaya çatdırmaq, demokratikləşmə prosesini sürətləndirmək məqsədilə təşkilata üzvlüyü vacib saymışdır.

"Ümidvaram ki, Azərbaycan tezliklə Avropa Şurasının tamhüquqlu üzvü olacaqdır. Biz müasir Avropa demokratiyasının yüksək standartlarına cavab vermək üçün öz tərəfimizdən hər şeyi edəcəyik", - deyən Ulu Öndər bu sözləri işdə də təsdiq edirdi. Bu siyasi kursun nəticəsi olaraq Azərbaycan dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının - BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər mötəbər qurumların üzvü kimi onların işində yaxından iştirak edir. Ötən illərdə Azərbaycanın üzv olduğu və əməkdaşlıq etdiyi bütün beynəlxalq təşkilatlarla əlaqələri daha da genişlənib və möhkəmlənib.

Azərbaycanın Avropa Şurasına üzv kimi qəbulu ölkəmizin beynəlxalq münasibətlər sistemindəki mövqeyinin formalaşmasında önəmli rol oynayıb. Müstəqilliyinin ilk illərində ağır daxili və xarici böhran yaşayan Azərbaycan bu beynəlxalq təşkilata tamhüquqlu üzv olmaq üçün çətin yol qət edib. Azərbaycan ilə Avropa Şurası arasında əlaqələrin tarixi 1992-ci ildən başlayıb. Həmin il yanvarın 24-də Azərbaycan parlamenti "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün Avropa Şurasına müraciət edib. 1996-cı il martın 17-18-də Azərbaycan Avropa Şurasının Qanun vasitəsilə Demokratiya üzrə Avropa Komissiyasına üzv qəbul olunub. Həmin il iyunun 28-də AŞPA Bürosu Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusunun verilməsi barədə qərar qəbul edib. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 13-də Avropa Şurası baş katibinin adına məktub göndərərək Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmaq və digər üzv dövlətlər kimi İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmaq arzusunda olduğunu bildirib.

1997-ci il oktyabrın 10-11-də Azərbaycan Prezidenti Heydər Əliyev Avropa Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Strasburqda keçirilən ikinci Zirvə toplantısında iştirak edib, Avropa Şurasının rəhbərliyi ilə Azərbaycanda demokratik proseslərin gedişi, ölkəmizin Avropa strukturları ilə əlaqələri barədə fikir mübadiləsi aparıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair ölkəmizin mövqeyini açıqlayıb.

1998-ci il yanvarın 20-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında", 1999-cu il oktyabrın 21-də "Avropa Şurasında Azərbaycan Respublikasının təmsilçiliyinin təşkilati təminatı haqqında" sərəncamlar imzalayıb.

2000-ci il iyunun 26-28-də AŞPA-nın növbəti sessiyasında Azərbaycan Respublikasının Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilməsinə dair müsbət rəy verilib. Avropa Şurası Nazirlər Komitəsinin 2000-ci il noyabrın 7-9-da keçirilən sessiyasında "Azərbaycanın Avropa Şurasına üzv olmağa dəvət edilməsi" adlı 14 saylı qətnamə qəbul edilib.

Nəhayət, 2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilib. Həmin il yanvarın 25-də Prezident Heydər Əliyevin iştirakı ilə Strasburqda Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilib və qurumun binasının qarşısında dövlətimizin bayrağı ucaldılıb.

2001-ci il aprelin 24-27-də Avropa Şurası Parlament Assambleyasının plenar sessiyası keçirilib. Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndə heyəti İlham Əliyevin rəhbərliyi ilə ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak edib. Elə ilk sessiyadan başlayaraq Ermənistanın işğalçılıq siyasətinin nəticələri avropalıların diqqətinə çatdırılıb. Sessiyada 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımının tanınması" adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları" adlı tövsiyə üçün təklif AŞPA-nın rəsmi sənədləri qismində yayılıb. Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetirilməsi, Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi, Ermənistanda və işğal altındakı torpaqlarımızda uşaqlar, qadınlar və yaşlılar da daxil olmaqla 783 azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər vurğulanıb.

2003-cü il yanvarın 27-də AŞPA Bürosunun iclasında Azərbaycanın Assambleyadakı nümayəndə heyətinin rəhbəri İlham Əliyev Büronun üzvü və qurumun vitse-prezidenti seçilib.

Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv seçildikdən sonra bu qurumla münasibətlərin genişləndirilməsi istiqamətində önəmli addımlar atılıb. Əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə bir sıra qarşılıqlı səfərlər həyata keçirilib.

2004-cü il aprelin 28-29-da Prezident İlham Əliyev Strasburqa səfəri çərçivəsində Avropa Şurasının bir sıra yüksək rütbəli nümayəndələri ilə görüşüb. Səfər zamanı Avropa Şurası Parlament Assambleyasının sədri Piter Şider Azərbaycan Prezidentinə AŞPA-nın fəxri üzvü diplomunu və medalını təqdim edib.

2005-ci il mayın 16-17-də Varşavada Avropa Şurasının üzvü olan dövlət və hökumət başçılarının III Zirvə toplantısı keçirilib. Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Azərbaycan 2008-ci ildə Avropa Şurasının Mədəniyyət nazirlərinin toplantısında başlamış "Bakı Prosesi"nin təşəbbüskarı olub və tarixdə ilk dəfə iki mühüm beynəlxalq təşkilatın - Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının nümayəndələri paytaxt Bakıda bir araya gəliblər.

2011-ci il yanvarın 26-da Avropa Şurasının binasında ölkəmizin bu quruma üzvlüyünün 10 illiyi münasibətilə rəsmi qəbul keçirilib. Tədbirdə həm Azərbaycandan, həm də Avropa Şurasından yüksəkvəzifəli şəxslər iştirak ediblər.

Azərbaycan Respublikası 2001-ci ildə Avropa Şurasına üzv olduqdan sonra ilk dəfə 2014-cü il mayın 14-dən altı aylıq dövr üçün təşkilatın Nazirlər Komitəsində sədrlik edib. Sədrlik dövründə Azərbaycan Avropa Şurasının fəaliyyətinin əsas sütunlarını təşkil edən insan hüquqları, qanunun aliliyi və demokratiyanın daha da inkişafı istiqamətində mühüm səylər göstərib, bu xüsusda qurumun üzv ölkələri və müxtəlif təsisatları ilə qarşılıqlı anlaşma şəraitində çalışıb.

Azərbaycanın Avropa Şurasına üzvlüyündən sonrakı dövr ərzində AŞPA-nın monitorinq komitəsinin respublikamız üzrə həmməruzəçilərinin ölkəmizin qurum qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinin nəzərdən keçirilməsi məqsədilə mütəmadi olaraq Bakıya səfərləri təşkil edilir. Hər dəfə hazırlanmış məruzələrdə Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi yüksək qiymətləndirilib, ölkəmizin demokratiya sahəsində mühüm inkişafa nail olduğu qeyd edilib.

Azərbaycan Avropa Şurasına üzv olduğu müddətdə qurumun bir sıra önəmli sahələri əhatə edən sənədlərinin hazırlanmasının və qəbulunun iştirakçısı olub. Ölkəmiz Avropa Şurasının Parlament Assambleyasında (AŞPA) və Avropa İnsan Hüquqları Məhkəməsində (AİHM) təmsil olunur.

Bu gün Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq yüksək səviyyədədir və ölkəmiz bu quruma üzv olduğu vaxtdan indiyədək demokratiyanın inkişafı, insan haqlarının və azadlıqların qorunması, vətəndaş cəmiyyətinin qurulması yolunda böyük uğurlar qazanıb.

Hazırda Azərbaycan Avropa Şurasının insan haqlarının qorunması, demokratiyanın daha da inkişaf etdirilməsi, qlobal problemlərin həllinə yardım göstərilməsi, beynəlxalq öhdəliklərə vicdanla əməl edilməsi kimi prinsiplərini rəhbər tutaraq bu qurumla əməkdaşlığı dinamik şəkildə inkişaf etdirir.

Avropa Şurasının tamhüquqlu və fəal üzvü kimi bu qurumla əməkdaşlıq edən və həmin əməkdaşlığı gündən-günə gücləndirən Azərbaycan qurumun insan haqlarının qorunması, demokratik proseslərin inkişaf etdirilməsi, qlobal problemlərin həllinə yardım göstərilməsi, beynəlxalq öhdəliklərə vicdanla əməl edilməsi kimi prinsiplərini hər zaman rəhbər tutur.

## Türkiyədə zəlzələdən zərər çəkənlər arasında Azərbaycan vətəndaşı yoxdur




Azərbaycanın Türkiyədəki səfirliyində Elazığ vilayətində baş vermiş dağıdıcı zəlzələ ilə bağlı yaradılan "qaynar xətt" fəaliyyətini davam etdirir. Səfirlikdən AZƏRTAC-a verilən məlumata görə, hadisədən dərhal sonra qurulan "qaynar xətt"lə əlaqə saxlayan aidiyyəti üzrə hökumət qurumlarının təmsilçiləri və KİV nümayəndələri vəziyyətlə maraqlanıblar. "Qaynar xətt"ə vətəndaş müraciəti olmayıb. Türkiyə tərəfindən zərərçəkənlər arasında Azərbaycan vətəndaşının olması barədə məlumat daxil deyil. Əlaqə nömrəsi: 00905526792565.

## 40 mindən çox şəxsə elektron qaydada pensiya, müavinət və təqaüd təyin edilib

Keçən ilin əvvəlindən ölkəmizdə pensiyaların, ilin son aylarında isə müavinət və təqaüdlərin, ümumilikdə 21 sosial təminat növünün (2 pensiya və 19 müavinət-təqaüd növü) avtomatlaşdırılmış qaydada təyinatı mexanizminə keçilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ötən dövrdə həmin e-sistemlər vasitəsilə 40 mindən çox şəxsə elektron qaydada pensiya, müavinət və təqaüd təyin edilib. Onlardan 16 min 100 nəfərə e-qaydada pensiya, 24 min nəfərə isə müavinət və təqaüd təyin edilib. Beləliklə, həmin şəxslərin hansısa quruma müraciətinə və sənəd təqdim olunmasına ehtiyac olmadan onlara proaktiv şəkildə, e-qaydada pensiya, müavinət və təqaüd təyinatı həyata keçirilib.

# Ehsan Zahidov: “Pozucu qüvvələr öz çirkin niyyətlərinə heç vaxt çata bilməyəcəklər”



Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidovun “Report”a müsahibəsi.

***- Son günlər ölkə mətbuatının gündəmini zəbt etmiş Salyan məsələsi - polis əməkdaşı Həmzə Əzizovla vətəndaş Aytəkin Abıyeva arasında olan mübahisə haradan qaynaqlanır?***

- Məlumat üçün bildirirəm ki, ötən il sentyabrın 17-də Salyan şəhər sakini Yaşar Abıyev Rayon Polis Şöbəsinə müraciət edərək qızı Aytəkinin evdən çıxaraq naməlum istiqamətdə getməsini bildirmiş və onun tapılması üçün polisdən kömək istəmişdir. Qeyd edim ki, bu, artıq Aytəkinin 3-cü dəfə valideynlərindən icazəsiz evlərini tərk etməsi halı idi. Bu dəfə də polis əməkdaşlarının həyata keçirdikləri müvafiq tədbirlərlə qızın yeri müəyyən edilərək saxlanılmış və RPŞ-yə gətirilmişdir. Aytəkin RPŞ-nin həyətində atasını, anasını və qardaşını gördükdə “Siz məni yenə də tutub valideynlərimə verdiniz?”- deyərək çantasında olan bıçaqla polis əməkdaşının sağlamlığına ağır xəsarət yetirmişdir. Bundan sonra rayon prokurorluğunda faktla bağlı cinayət işi qaldırılmış və A.Abiyeva Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə törətdiyi həmin cinayət əməlinə görə təqsirli bilinərək azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir.

***- Belə iddialar səsləndirilir ki, guya polis əməkdaşı həmin qıza təcavüz edib. Bu iddiaya münasibətiniz necədir?***

- Tamamilə əsassız və uydurma iddiadır. Qeyd etdiyim kimi, prokurorluqda qaldırılmış cinayət işinin istintaqı və məhkəmə baxışı zamanı A.Abiyevanın ifadəsi və digər sübutlarla təsdiq olundu ki, onlar arasında heç bir yaxınlıq olmayıb. Yəni itkin düşən şəxsin polis əməkdaşı tərəfindən axtarılıb tapılması tam qanunamüvafiq həyata keçirilib.

***- Polis əməkdaşı Həmzə Əzizovun Daxili İşlər Nazirliyinin rəhbərliyində təmsil olunan hər hansı şəxslə qohumluq əlaqələri varmı?***

- Birmənalı olaraq bildirirəm ki, polis kapitanı Həmzə Əzizovun DİN-in rəhbər heyətində heç bir qohumu yoxdur.

***- Digər bir iddia da var ki, hazırda inzibati həbsdə olan Salyan rayon sakini Zamin Salayev saxlanılarkən işgəncəyə məruz qalıb və hətta qarın yırtığı partlayıb...***

- Bu məlumat da cəmiyyətdə təxribat xarakterli yalan məlumat yaymaqda maraqlı olan müəyyən dairələrin uydurduğu növbəti əsassız iddiadır. Z.Salayev məhkəmənin qərarı ilə törətdiyi inzibati xətaya görə həbs edilmişdir. Onun bütün prosessual hüquqları təmin edilmiş, o, vəkili və ailə üzvləri ilə görüşmüş, eləcə də Ombudsman Aparatının əməkdaşları ona baş çəkmişlər. Həmin məlumatla əlaqədar Daxili İşlər Nazirliyi tərəfindən xidməti yoxlama aparılıb, Z.Salayevin izahatı alınıb, Nazirliyin təşəbbüsü ilə o, DİN-in Hospitalına aparılaraq həkim müayinəsindən keçirilib. Ona işgəncə verilməsinə dair məlumat öz təsdiqini tapmamışdır. Z.Salayevin səhhətində ciddi problem aşkarlanmayıb. Yalnız həkimlər onda çoxdan mövcud olan qarın yırtığı aşkarlayıblar və özünə bu barədə məlumat veriblər.

***- Bəs belə bir adi məsələnin geniş rezonans doğurmasının və polisin üzərinə bu qədər basqının olmasının səbəbi nədir?***

- Bizə artıq məlumdur ki, müəyyən şəxslər ölkədə bərqərar olmuş ictimai asayişi, ictimai təhlükəsizliyi qəsdən pozmaq üçün əllərinə düşən hər yoxlanılmamış məlumatdan istifadə etməyə cəhd edirlər. Lakin onların belə qanunsuz əməllərinin qarşısı hüquq mühafizə, o cümlədən də polis əməkdaşları tərəfindən hər dəfə qətiyyətlə alınıb və bundan sonra da alınacaqdır. Həmin pozucu qüvvələr öz çirkin arzularına və niyyətlərinə heç vaxt çata bilməyəcəklər. Ona görə də onlar qərəzli olaraq eşitdikləri məlumatları təhrif edərək polisin əleyhinə istifadə etməyə çalışırlar. Elə Salyan məsələsinin də geniş rezonans doğurmasının səbəbi budur.

Hesab edirik ki, hüquq mühafizə orqanları hər dəfə belə “fake” xəbərləri aşkarlayıb məsələyə aydınlıq gətirdiyi kimi, mətbuat və sosial şəbəkə istifadəçiləri də öz növbəsində belə təhrif olunmuş və yalan məlumatların yayılmasının qarşısını almalıdır.

# Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələrinin adları açıqlanıb

Keçən il Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələri sırasında ilk üçlükdə İran, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanı qərarlaşıb.

AZƏRTAC Dövlət Gömrük Komitəsinin məlumatına istinadla xəbər verir ki, il ərzində ölkəmizin İranla ticarət dövriyyəsinin həcmi 493,8 milyon ABŞ dolları, BƏƏ ilə 66 milyon dollar, Səudiyyə Ərəbistanı ilə isə 13,7 milyon dollar olub. İran və Birləşmiş Ərəb Əmirlikləri ilə ticarət dövriyyəsi 2018-ci ilə nisbətən artıb, Səudiyyə Ərəbistanı ilə azalıb. Bu ölkələr, eyni zamanda, Azərbaycanın ən çox məhsul idxal etdiyi Körfəz ölkələri sırasında da ilk üçlükdədir. İrandan idxalın dəyəri 452,7 milyon min dollar, BƏƏ-dən 46,9 milyon min dollar, Səudiyyə Ərəbistanından isə 13,7 min dollar təşkil edib. Ölkəmiz Səudiyyə Ərəbistanından idxalı azaltsa da, İran və BƏƏ-dən idxalı artırıb.




# Abşeronda iki məktəbli qızı vuran sürücü tutulub

Abşeron rayonunun polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində azyaşlıların xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsini törətməkdə şübhəli bilinən sürücü tutularaq istintaqa cəlb edilib.

Baş Prokurorluqdan AZƏRTAC-a bildirilib ki, yanvarın 23-də saat 14 radələrində Xırdalan şəhəri ərazisində Cəmil Bəylərov idarə etdiyi “Mercedes-Benz” markalı, 99-KR-546 dövlət qeydiyyat nişanlı avtomobillə hərəkətdə olarkən idarəetmeni itirərək səki ilə hərəkət edən piyadalar - 2005-ci il təvəllüdlü Asu Səbzəliyeva və 2006-cı il təvəllüdlü Fidan Orucovanı vurub. Piyadalara bədən xəsarətləri yetirməsi faktına görə rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 263.1-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə hadisə yerinə baxış keçirilib, zəruri ekspertizalar təyin olunub və digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib. Aparılmış istintaqla hadisənin C.Bəylərov tərəfindən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını kobud surətdə pozaraq törədilməsinə əsaslı şübhələr müəyyən edildiyindən, o, şübhəli şəxs qismində tutulub. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir. Qeyd edək ki, zərərçəkənlər orta məktəb şagirdləri olub.

# “Sumqayıt və Gəncə şəhərlərində əlavə “ASAN xidmət” mərkəzləri tikiləcək”



Bu il Kürdəmir, Ağcabədi, Tovuz, Balakəndə və Bakıda “ASAN xidmət” mərkəzlərinin açılması nəzərdə tutulur. Eyni zamanda, Sumqayıt və Gəncə şəhərlərində əlavə “ASAN xidmət” mərkəzlərinin tikintisinə başlanılacaq. Salyan və Lənkəran şəhərlərində də “ASAN xidmət” mərkəzləri tikiləcək. Bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev jurnalistlərə açıqlamasında bildirib.

Agentliyin sədri deyib ki, Prezident İlham Əliyev yanvarın 16-da “Naxçıvan şəhərində “ASAN xidmət” mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb. Naxçıvan Muxtar Respublikasına bununla bağlı müvafiq tapşırıqlar verilib. Yaxın günlərdə bu istiqamətdə tədbirlərə başlanılacağı gözlənilir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanı ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində “ASAN xidmət” mərkəzləri yaradılıb. Hazırda Azərbaycanda 16 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxtda olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki və Şamaxıdadır. Həmçinin Bakı şəhərində əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 “ASAN Kommunal” mərkəzi fəaliyyətdədir.

# “Könüllülər ili” ilə bağlı Tədbirlər Planı bu yaxınlarda təsdiq olunacaq



“Könüllülər ili” ilə bağlı Tədbirlər Planı bu yaxınlarda təsdiq olunacaq. “ASAN xidmət” Tədbirlər Planı üçün öz təkliflərini verib. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev jurnalistlərə açıqlamasında məlumat verib. Agentliyin sədri bildirib ki, “Könüllülər ili” çərçivəsində müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. Burada əsas məqsəd daha çox gənci könüllü proqramına cəlb etmək, könüllülüyün gənclərə verdiyi təcrübəni, özünütəkmilləşdirmə proqramlarını, kursları və təlimləri davam etdirməkdir. Qeyd edək ki, Prezident İlham Əliyev ötən il dekabrın 30-da 2020-ci ilin Azərbaycanda “Könüllülər ili” elan edilməsi haqqında Sərəncam imzalayıb.

# Milli valyutada olan əmanətlər artıb



Mərkəzi Bankın məlumatına görə, ötən il dekabrın 1-nə əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,5 faiz artaraq 8 milyard 681,5 milyon manat təşkil edib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, əmanətlərin 54,1 faizi xarici, 45,9 faizi isə milli valyutada qoyulub. Milli valyutada olan əmanətlər keçən ilin müvafiq dövrünə nisbətən 32 faiz artıb, xarici valyutada əmanətlər isə 7,1 faiz azalıb. Dekabrda milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 (ilin əvvəlindən 1,70) manata, 1 avroya 1,89 (1,90) manata, 100 rus rubluna 2,70 (2,63) manata bərabər olub.

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*



## Siyavuş Novruzovun təbliğat-təşviqat kampaniyası silsilə görüşlərlə davam edir

***5 saylı Şahbuz-Babək Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzov təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə silsilə görüşlərini davam etdirir. Növbəti görüşlər Şahbuz rayonunun Gömür, Kolanı, Aşağı Qışlaq, Yuxarı Qışlaq, Mahmudoba, Nursu, Daylaqlı, Sələsüz və Mərəlik kəndlərində keçirilib.***

Siyavuş Novruzov görüş zamanı hüquqi və demokratik dövlət olan Azərbaycanda fevralın 9-da keçiriləcək parlament seçkilərinin əhəmiyyətindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət kursunun, eləcə də, dərin islahatlar strategiyasının uğurlu nəticələrindən bəhs edib. O, Azərbaycanın beynəlxalq müstəvidə güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanındığını seçicilərin diqqətinə çatdırıb. Namizəd YAP-ın ölkəmizin tərəqqisində, müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmlənməsində tarixi rolu və misilsiz xidmətləri barədə danışaraq, deyib ki, hər hansı bir siyasi partiyanın gücünü və nüfuzunu müəyyən edən mühüm amillərdən biri onun seçkilərdə əldə etdiyi nəticələrdir.

"Şübhəsiz ki, seçkilərin nəticələri partiyanın cəmiyyətdaxili siyasi proseslərdə yeri və rolunu müəyyən edir, insanların ona rəğbət və etimadını göstərir" deyə bildirən Siyavuş Novruzov qeyd edib ki, məhz bu baxımdan, YAP hazırkı dövrə qədər qatıldığı bütün seçkilərdə - bələdiyyə, parlament və prezident seçkilərində möhtəşəm zəfərlərin altına imza ataraq, qələbələr partiyası olduğunu sübuta yetirib: "Bu, hər şeydən əvvəl, YAP-ın öz gücünü xalqın dəstəyindən aldığını göstərir və partiyanın fəaliyyəti Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Əminliklə söyləmək olar ki, partiyamız fevralın 9-da keçiriləcək parlament seçkilərində də xalqın dəstəyi və etimadı əsasında növbəti möhtəşəm qələbə qazanacaq".

Görüşlərdə çıxış edən seçicilər də, öz növbələrində, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların vətəndaş məmnunluğunu artırdığını, əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən addımların Azərbaycanın qüdrətinin artmasını şərtləndirdiyini diqqətə çatdırıblar.

Qeyd olunub ki, çoxəsrlik tarixində heç vaxt indiki qədər güclü olmayan müstəqil Azərbaycan dövləti hər bir vətəndaşın inam yeri və qürur mənbəyidir. Onlar ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşların rifahı və mənafeyinin dayandığını diqqətə çatdıraraq, bildiriblər ki, hər bir vətəndaşın öz üzərində dövlətin hərtərəfli qayğısını hiss etməsi təqdirəlayiq haldır.

Sakinlər, eyni zamanda, Prezident İlham Əliyevin muxtar respublikanın inkişafına böyük önəm verməsini məmnunluq və minnətdarlıq hissi ilə diqqətə çatdırıblar. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi ilə inkişafa, tərəqqiyə və firavan gələcəyə xidmət edən mühüm işlərin görüldüyünü, insanların rifahının - həyat şəraitinin daha da yaxşılaşdığını diqqətə çatdıraraq, qazanılmış nailiyyətlərin əhəmiyyətindən bəhs ediblər. Seçicilər Şahbuz rayonunda və onun bütün kəndlərində genişmiqyaslı abadlıq-quruculuq işlərinin aparılmasının, yüksək infrastruktur təminatının yaradılmasının sakinlərə göstərilən xüsusi diqqət və qayğının daha bir bariz nümunəsi olduğunu vurğulayaraq,

Yeni Azərbaycan Partiyasının xalqın etimadını doğrultduğunu və ölkəmizin inkişafına dəyərli - layiqli töhfələr verdiyini bildiriblər. Onlar daha qüdrətli Azərbaycan naminə YAP-ın namizədinə səs verəcəklərini qətiyyətlə ifadə ediblər.



Görüş zamanı sakinlərin təklifləri, qayğıları dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.

**Rövşən RƏSULOV**



## Zaqatalalılar Kamilə Əliyevanı dəstəkləyirlər

***Fevralın 9-da keçiriləcək parlament seçkilərində 111 saylı Zaqatala-Balakən seçki dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası uğurla davam edir.***

Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Kamilə Əliyeva təbliğat-təşviqat kampaniyası çərçivəsində günün birinci yarısında Zaqatala rayonunun Danaçı və Uzunqazmalar kəndlərinin sakinləri ilə görüş keçirib. Günün ikinci yarısı isə onun Zaqatala rayonunun Aşağı Çardaxlar kənd sakinləri ilə fərdi görüşləri təşkil olunub. Görüşdə Yeni Azərbaycan Partiyasının Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov, digər səlahiyyətli nümayəndələr iştirak edib.

Görüşdə çıxış edən deputatlığa namizəd Kamilə Əliyeva, son 16 il ərzində ölkədə görülən işlərdən, həyata keçirilən uğurlu siyasətdən söz açıb. Kamilə Əliyeva bildirib ki, bu gün Azərbaycan iqtisadi inkişaf baxımından, heç bir ölkədən asılı deyil: "İqtisadi müstəqillik bizə imkan verir ki, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil siyasət apararaq, Azərbaycan xalqının maraqlarını hər zaman müdafiə etsin." Ölkəmizdə beynəlxalq layihələrlə yanaşı, ölkə daxilində həyata keçirilən sosial, aqrar və sənaye layihələrinin də uğurla icra edildiyi görüş iştirakçılarının diqqətinə çatdırılıb. Namizəd Kamilə Əliyeva çıxışı zamanı deputat olduğu dönəmdə göstərdiyi fəaliyyətindən söz açmışdır.

Sonra seçicilər Yeni Azərbaycan Partiyasının namizədi və onun səsləndirdiyi fikirlər ətrafında mövqelərini bildirib, təkliflərini səsləndiriblər. Seçicilər ölkə başçısı İlham Əliyevə vətəndaşların rifah halının yüksəldilməsi yönündə siyasət yürütdüyü üçün öz dərin minnətdarlıqlarını ifadə ediblər.

Fərdi görüşlər zamanı seçicilər millət vəkilliyinə namizəd Kamilə xanım Əliyevaya qarşıdan gələn seçkilərdə və gələcək fəaliyyətində uğurlar arzulayıblar.

**ZÜMRÜD BAYRAMOVA**



# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*





## Qobu Parkda məskunlaşmış laçınlılardan Mahir Abbaszadəyə dəstək

***Dünən Yeni Azərbaycan Partiyasının 121 saylı Laçın Seçki Dairəsindən deputatlığa namizədi Mahir Abbaszadə Qaradağ rayonu Qobu Park yaşayış kompleksində məskunlaşmış laçınlı məcburi köçkünlərlə görüşüb.***

Görüşdə M.Abbaszadə ağır məhrumiyyətlər yaşamış məcburi köçkünlərə dövlət qayğısından danışıb. O, qeyd edib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli ilə bağlı verdiyi tapşırıqlar ardıcıl icra olunur. Eyni zamanda, ölkə rəhbərliyinin çağırışı ilə artıq özəl sektor da məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması işinə qoşulub.

Tədbirdə çıxış edənlər Mahir Abbaszadənin millət vəkili kimi indiyədək göstərdiyi fəaliyyətə nəzər salıb, onun deputat kimi hər zaman əlçatan olduğunu vurğulayıblar. Deyilənlərin əyani sübutu kimi namizədin Qobu Parkda məskunlaşmış laçınlı ailələrin müraciətini cavabsız qoymaması və onlarla ayrıca görüş keçirməsi də göstərilib.

M.Abbaszadənin, həmçinin, şəhid ailələri, müharibə veteranları və əlillərinin daim yanında olduğu, onların problemləri ilə fərdi şəkildə məşğul olduğu qeyd edilib.

Mahir Abbaszadənin vəkilləri onun həm də ölkədə həyata keçirilən islahatların fəal təbliğatçısı olduğunu da diqqətə çatdırıblar.

Yeni seçiləcək parlamentdən və öz deputatlarından gözləntilərini ifadə edən laçınlı seçicilər fevralın 9-da keçiriləcək səsvermədə Mahir Abbaszadəyə qələbə arzu ediblər.

Mahir Abbaszadə ona etimad göstərdiyi üçün Yeni Azərbaycan Partiyasına və hər bir seçicisinə təşəkkür edib. Qarşıdan gələn seçkilərdə qalib gələcəyi təqdirdə, səsləndirilən təkliflərin həllinə, qeyd edilən problemlərin aradan qaldırılmasına çalışacağını bildirib.

**RƏFİQƏ KAMALQIZI**

## Ən layiqli namizədlərə səs verək



Parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 108 saylı Ağstafa Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Nizami Qulu oğlu Cəfərov Ağstafa rayonunun Dağkəsəmən kəndində seçicilərlə görüşü keçirilib.



N.Cəfərov növbəti illər üçün Milli Məclisin deputatı seçilərsə, görəcəyi işlərdən, rayon üçün inkişaf proqramının həyata keçirilməsi ilə bağlı daim çalışacağını bildirib. Millət vəkili olmağın şərəfli bir iş olduğunu qeyd edən N.Cəfərov seçicilərin etimadını qazanacağı təqdirdə, insanların qayğıları ilə yaşayıb onların fikirlərini, təkliflərini parlament tribunasından səsləndirəcəyini bildirib: “Bu səbəbdən də, çalışacam ki, seçki prosesində çox fəal olum, sizinlə davamlı görüşüm, fikirlərinizi öyrənim, problemlərinizin sizinlə birlikdə, sizin iştirakınızla həll edilməsinə səy göstərim”.

N.Cəfərov seçiciləri 9 fevral seçkilərində fəal olmağa və YAP-ın namizədlərinə səs verməyə çağırıb.

**RƏFİQƏ HÜSEYNOVA**

## Sevinc Fətəliyevanın Zığ seçiciləri ilə görüşü baş tutub



Fevralın 9-da keçiriləcək VI çağırış Milli Məclisə seçkilərdə 30 saylı Suraxanı I Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Fətəliyeva Sevinc Həbib qızı Zığ kəndində seçicilərlə görüş keçirib.



Görüşdə çıxış edən deputatlığa namizəd Sevinc Fətəliyeva növbəti illər üçün Milli Məclisə üzv seçilərsə, görəcəyi işlərdən, rayon üçün inkişaf proqramının həyata keçirilməsi ilə bağlı daim çalışacağını bildirib. Xalqı Milli Məclisdə təmsil etməyin məsuliyyətli bir iş olduğunu qeyd edən S.Fətəliyeva seçicilərin etimadını qazanacağı halda, xalqın qayğıları ilə yaşayıb, insanların fikirlərini və təkliflərini Milli Məclisin tribunasından səsləndirəcəyini bildirib: “Bu səbəbdən də, çalışacam ki, seçki prosesində çox fəal olum, sizinlə davamlı görüşüm, fikirlərinizi öyrənim, problemlərinizin sizinlə birlikdə və sizin iştirakınızla həll edilməsinə səy göstərim”.

Sevinc Fətəliyeva Yeni Azərbaycan Partiyasının Seçki Platforması və öz fəaliyyəti barəsində məlumat verərək, qeyd edib ki, YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub: “Aparılan uğurlu islahatlar nəticəsində, dövlətimiz gündən-günə inkişaf edir, iqtisadiyyatımız güclənir və insanların rifah halı yaxşılaşır. Təbii ki, bütün bunlara görə Möhtərəm Prezidentimiz İlham Əliyevə təşəkkür edirik. Şübhə yoxdur ki, bu inkişaf qarşıdakı illərdə daha da artacaqdır”.

Sevinc Fətəliyeva sonda seçiciləri fevralın 9-da fəal olmağa və layiqli namizədə səs verməyə çağırıb.

**ZÜMRÜD BAYRAMOVA**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*





## Deputatlığa namizəd Aydın Hüseynov Ələt qəsəbəsində seçicilərlə görüşdü

***Yeni Azərbaycan Partiyası tərəfindən 11 saylı Qaradağ Seçki Dairəsindən namizədliyi irəli sürülən Aydın Hüseynovun Ələt qəsəbəsinin sakinləri ilə növbəti görüşü keçirilib.***

Görüşdə Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının aparat rəhbəri Hacı İbrahimov çıxış edərək bildirib ki, 11 saylı Qaradağ Seçki Dairəsindən namizədliyi irəli sürülən Aydın Hüseynovun təbliğat-təşviqat kampaniyası uğurla aparılır: "Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə xalqımızın ona göstərdiyi etimadı doğruldub və xalqın partiyasına çevrilməyi bacarıb. Bu, bir siyasi partiya üçün ən böyük nailiyyətdir".

Yeni Azərbaycan Partiyası tərəfindən 11 saylı Qaradağ Seçki Dairəsindən namizədliyi irəli sürülən Aydın Hüseynov qəsəbə sakinləri ilə görüşündə bildirdi ki, dövlət başçısı İlham Əliyevin reallaşdırdığı uğurlu layihələr və apardığı islahatlar nəticəsində Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qaradağ rayonunda da böyük işlər görülüb: "Şübhəsiz ki, bütün bunlar Ulu Öndər Heydər Əliyev ideyalarının və bu gün bu ideyaları layiqincə həyata keçirən Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir. Bu uğurlu siyasət dövlətçiliyimizin, xalqımızın inkişafına və tərəqqisinə yönəlmişdir. Prezident İlham Əliyev ilk gündən bəyan edib ki, bizim siyasətimizin mərkəzində insan amili və Azərbaycan vətəndaşı dayanır. Atılan bütün addımların və həyata keçirilən siyasətin də məqsədi Azərbaycan vətəndaşlarının ən yüksək həyat şəraiti ilə təmin olunmasıdır".

Aydın Hüseynov, onu da vurğulayıb ki, Azərbaycanda bütün sahələrdə davamlı inkişafı təmin etmək üçün konkret dövlət proqramları həyata keçirilir: "Regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyinin təmin olunması, təhsil, elm, mədəniyyət sahələrində əsaslı uğurların qazanılması və digər istiqamətlərdə həyata keçirilən dövlət proqramlarının bugünkü uğurlu nəticələri, bir daha sübut edir ki, məqsədyönlü şəkildə effektiv islahatlar bütün sahələrin paralel inkişafını təmin edib. Təbi ki, bu nailiyyətlər ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir və cəmiyyətimiz xalqın mənafeyinə xidmət edən bu siyasi kursu dəstəkləyir. Bu seçkilərdə də mən seçicilərin dəstəyinə inanaraq, daim onlarla birgə olmağı, ölkəmiz və xalqımız naminə çalışmağı vəd edirəm. Əminəm ki, bütün seçkilərdə inamlı qələbə əldə edən Yeni Azərbaycan Partiyası Milli Məclisə növbəti seçkilərdə də qələbə qazanacaq. Mən sizləri bundan sonra da dövlətə və xalqa xidmət edən YAP-ın namizədlərinə səs verməyə çağırıram."

Görüşdə Ələt qəsəbəsinin ağsaqqalları Elçin Rəsulov, Qurbanqulu Rəhimov, Nizami Mehdiyev və Samir Səlimov çıxış edərək bildiriblər ki, hər zaman Aydın Hüseynov seçicilərin həm xeyrində, həm də şərində yanında olub, problemləri ilə maraqlanıb və həll edilməsində yardımçı olub. Bu gün də bura yığışmaqda məqsədimiz Aydın Hüseynovu dəstəkləməkdir.

Tədbirin sonunda deputatlığa namizəd Aydın Hüseynov qəsəbənin sakinlərinin suallarını cavablandırıb, birinci qrup əlilə baş çəkib və onları narahat edən problemləri ilə yaxından tanış olub.

**RƏFİQƏ HÜSEYNOVA**

## 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizəd Hikmət Babaoğlunun təmsil olunduğu dairənin seçiciləri ilə görüşü keçirilib





***Parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizədi Hikmət Babaoğlunun seçicilərlə növbəti görüşü keçirilib.***

Görüşdə çıxış edən YAP Nərimanov rayon təşkilatının Seçki Qərargahının sədri Təmraz Tağıyev parlament seçkilərinin ölkəmizin siyasi həyatında mühüm hadisə olduğunu bildirib. O, görüş iştirakçılarına deputatlığa namizəd Hikmət Babaoğlu haqqında geniş məlumat verib.

Görüşdə çıxış edən deputatlığa namizəd Hikmət Babaoğlu parlament seçkilərinin əhəmiyyətindən bəhs edib və diqqətə çatdırıb ki, ölkəmiz, o cümlədən, Yeni Azərbaycan Partiyası zəngin seçki təcrübəsinə malikdir: "Ümumxalq partiyası olan, Cənubi Qafqazın ən böyük və mütəşəkkil siyasi təşkilatı kimi xarakterizə olunan Yeni Azərbaycan Partiyası "Daha güclü Azərbaycan namine!" şüarı ilə seçkilərə gedir. Burada məqsəd indiyə kimi qazanılan uğurları daha da artırmaq, müstəqil dövlətimizi bütün sahələr üzrə daha da gücləndirməkdir. Partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin siyasəti nəticəsində, bu məqsədlərə doğru inamla gedirik. "Daha güclü Azərbaycan namine!" deyəndə, partiyamız bu məqamları, xüsusilə, milli və dövlət maraqlarımızın tələb etdiyi bütün hədəfləri nəzərdə tutur. Ona görə də, YAP artıq yeni inkişaf mərhələsində "Daha güclü Azərbaycan naminə!" şüarını yeni Azərbaycanımızın ən yeni tezisi kimi müəyyənləşdirib".

Hikmət Babaoğlu, həmçinin, seçicilərə millət vəkili olaraq gördüyü işlər, özünün ictimai-siyasi və elmi fəaliyyəti haqqında da məlumat verib. O, qeyd edib ki, millət vəkili kimi fəaliyyəti ərzində vətəndaşlar tərəfindən ünvanımıza 118 şifahi və 97 yazılı müraciət daxil olub. Qeydə alınan 215 müraciətdən 100 müraciət tam olaraq həllini tapıb, 60 müraciət qismən təmin edilib, 40 müraciət aidiyyəti qurumlara göndərilib və yerdə qalan müraciətlərlə bağlı lazımi izahatlar verilib. "Seçki bir demokratiya yarışıdır. Mən inanıram ki, sizlər Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəksiniz. Sizin qaldırdığınız məsələləri, kimliyindən asılı olmayaraq, yalnız YAP kimi böyük nüfuza malik partiyanın nümayəndəsi həll edə bilər. Sizi 9 fevral seçkilərində fəal olmağa çağırıram və əgər mənə etimad göstərsəniz, parlamentdə yenə də sizin layiqli təmsilçiniz olacağam".

Görüşdə digər çıxış edənlər, ölkədə keçirilən hər bir seçkidə olduğu kimi, qarşıdan gələn parlament seçkilərində də YAP-ın namizədlərinin qələbə qazanacaqlarına və bu prosesdə cəmiyyət üzvlərinin aktiv iştirak edəcəklərinə əminliklərini bildiriblər. Diqqətə çatdırılıb ki, Azərbaycanın sürətli inkişafı, möhkəm ictimai-siyasi sabitlik hər bir vətəndaşda qürur və məmnunluq hissi doğurur, məhz buna görə də, ümumxalq partiyası olan YAP Azərbaycan cəmiyyətinin alternativsiz seçimidir.

Daha sonra deputatlığa namizəd Hikmət Babaoğlu seçicilərlə söhbət edib, onların fikir və təkliflərini dinləyib.

**RƏFİQƏ KAMALQIZI**

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını uğurla davam etdirir*

### OĞUZ





Yanvar ayının 24-də 117 saylı Oğuz rayonu Seçki Dairəsindən deputatlığa namizəd Aqiyə Naxçıvanlı Bucaq və Calut kəndlərində seçicilərlə görüş keçirib. Görüşdə Aqiyə Naxçıvanlını təbliğat-təşviqat qrupunun üzvləri - Yeni Azərbaycan Partiyasının Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov, vəkilləri, rayon Ağsaqqallar Şurasının sədri Cuma Cumayev, Emin Əzimli və Elşən Alcansoy müşayiət ediblər. Görüşdə çıxış edənlər ölkədə reallaşdırılan quruculuq işlərindən, ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən siyasətdən, əldə edilən davamlı, dinamik uğurlardan və reallaşdırılan çoxşaxəli islahatlardan bəhs edərək, bütün bu reallıqların ölkəmizi daha böyük zəfərlərə apardığını bildiriblər. Eyni zamanda, sakinlərə Aqiyə Naxçıvanlının indiyə qədərki fəaliyyətindən və qarşıda görüləcək işlərdən danışılıb, onların istək və təklifləri dinlənilib, qayğı və problemləri ilə maraqlanılıb.

Seçicilərlə səmimilik və qarşılıqlı etimad şəraitində baş tutan görüş zamanı Aqiyə Naxçıvanlı ölkədəki sabitlik, dayanıqlı inkişaf və islahatlar, eləcə də Yeni Azərbaycan Partiyasının seçkilərdəki platforması barədə geniş məlumat verərək, bütün bunların əsasında xalq və dövlətçilik maraqlarının dayandığını vurğulayıb.

Görüşdə Bucaq kəndinin ağsaqqalı Müseyib Musayev çıxış edərək, Aqiyə xanımın valideynləri - atası Həbib Naxçıvanskinin, anası Səriyyə müəllimənin, ilk dəfə olaraq, məhz Bucaq kəndində pedaqoji fəaliyyətə başlamalarından, Bucaq və ətraf kəndlərin neçə-neçə nəsil şagirdlərinin layiqli vətəndaş kimi yetişməsinə böyük əmək sərf etdiklərindən danışaraq, Həbib müəllimlə bağlı xatirələrini bölüşüb. Həmçinin, Aqiyə xanımın universiteti bitirdikdən sonra doğma rayonda məsul vəzifələrdə çalışdığından, onun elə o dövrdəki əzmkarlığından və bu ailənin rayonun inkişafına verdiyi töhfələrdən söhbət açıb.

Bucaq kəndindən olan seçicilər - Sahib İmamverdiyev, Araz Rəşidov, eləcə də, Calut kənd seçiciləri Vilayət Həsənov, Lətif Abbasov, Vidadi Həsənov, Günel İbrahimova və Yolçu Hüseynov çıxış edərək, Prezident İlham Əliyev Cənablarının həyata keçirdiyi siyasəti, islahatlar prosesini müdafiə etdiklərini və Onun ətrafında sıx birləşdiklərini ifadə edərək, fevralın 9-da keçiriləcək parlament seçkilərində fəal olacaqlarını, YAP-ın namizədinə dəstək verəcəklərini, birmənalı olaraq vurğulayıblar.

### QUSAR

51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamovun növbəti görüşü rayo-





nun Samur qəsəbə, Şirvanlı, Aşağı İmamqulukənd, Əniqoba və Quxuroba kənd seçiciləri ilə olub.

Görüşləri YAP Qusar rayon təşkilatının sədr müavini Nadirşah Şirinov açaraq, seçicilərə son illər ərzində ölkəmizin, davamlı olaraq, inkişaf mərhələsi keçdiyini bildirək, insanların rifahının daha da yüksəldiyini diqqətə çatdırıb. O, görülən işlərin Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü düşünülmüş siyasətinin və yorulmaz əməyinin nəticəsi olduğunu bildirib. N.Şirinov Yeni Azərbaycan Partiyasının 51 saylı Qusar Seçki Dairəsindən deputatlığa namizədi Azər Badamovun fəaliyyəti barədə danışaraq, seçiciləri Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Azər Badamova səs verməyə çağırıb.

Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək, YAP-ın bu seçkilərə “Daha güclü Azərbaycan naminə” şüarı ilə qatıldığını bildirərək, millət vəkili seçiləcəyi təqdirdə, bu etimadı doğrultmaq üçün çalışacağını vurğulayıb.

Görüşlərdə çıxış edən kənd sakinləri Nəriman Osmanov, Yaşar Behbudov, Nəvai Ağayev, Məmməd Eldarov, Nemət Ramazanov, Malıbəy Gidaliyev, Sevda Babayeva, Zaur Mürsəlov,Əsədulla Qələbəgiyev,Qubaşah Fətullayev və Gülbala Həmidov Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək, deputatlığa namizəd Azər Badamova yekdilliklə səs verəcəklərini bildiriblər.

### NƏSİMİ



Yeni Azərbaycan Partiyasının 23 saylı Nəsimi-Səbail III Seçki Dairəsi üzrə vahid namizədi Elnur Rəhimovun seçicilərlə növbəti görüşü keçirilib. Görüşdə YAP Nəsimi rayon



təşkilatının sədri Məlahət İbrahimqızı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin həyata keçirdiyi dərin islahatlar, ölkəmizin hər bir guşəsində bu islahatların hiss edilən müsbət təsirləri haqda söhbət açıb. Sonra rayon sakinlərinə YAP-ın bu ərazi üzrə namizədi Elnur Rəhimov haqqında məlumat verib və sakinləri 9 fevral seçkilərində onu dəstəkləməyə çağırıb.

Görüşdə çıxış edən Elnur Rəhimov Azərbaycan dövlətinin gənclərə olan qayğı və diqqətindən, eləcə də, Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatlardan danışıb. Elnur Rəhimov YAP Nəsimi rayon təşkilatı gənclər birliyinin sədri olduğu zaman gənclərlə apardığı işlər və həyata keçirdiyi beynəlxalq layihələrlə bağlı seçiciləri məlumatlandırıb. Onları 9 fevral parlament seçkilərində Azərbaycan gənclərinə etimad göstərməyə çağırıb.

22 saylı Nəsimi II Seçki Dairəsindən YAP namizədi olan Sərraf Hüseynov da görüşdə çıxış edərək, seçicilərdən gənc namizədlərə dəstək olmasını bildirib. O, qeyd edib ki, parlamentin gəncləşməsi, əslində, Cənab İlham Əliyevin çağırışıdır və düşünürük ki, xalqımız da Prezidentimizin bu çağırışına adekvat olacaqdır.

Görüşün sonunda sakinlərin problemləri, şikayət və təklifləri dinlənilib.

### NƏSİMİ





Yeni Azərbaycan Partiyasının 22 saylı Nəsimi II Seçki Dairəsi üzrə vahid namizədi Sərraf Hüseynovun seçicilərlə növbəti görüşü keçirilib. Görüşdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı Sərraf Hüseynovun bu zamana qədərki fəaliyyəti ilə bağlı məlumat verib və rayon seçicilərini partiyanın namizədinə səs verməyə çağırıb.

*Ardı Səh. 12*

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasını ugurla davam etdirir*

**Əvvəli-Səh-11**

Görüşdə çıxış edən Sərraf Hüseynov bildirib ki, onun fəaliyyətinin böyük bir hissəsi, məhz Nəsimi rayonu ilə bağlı olub. Belə ki, YAP Nəsimi rayon təşkilatında uzun müddət çalışıb, hazırda da Nəsimi rayonunda yerləşən Azərbaycan Dillər Universitetində rektorun ictimai məsələlər üzrə müşaviri vəzifəsində çalışır.

Sərraf Hüseynov seçicilərə ölkə Prezidenti İlham Əliyevin apardığı böyük islahatlardan və bu islahatların insanların rifahının güclənməsinə olan təsirindən, həmçinin, icra hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarında aparılan dəyişikliklərdən söz açaraq, bunun parlamentimiz üçün də labüd olduğunu diqqətə çatdırıb. Daha sonra seçiciləri 9 fevral parlament seçkilərində aktiv olmağa və öz səslərini partiyanın namizədlərinə səs verməyə çağırıb.

Görüşün sonunda sakinlərin problemləri, şikayət və təklifləri dinlənilib.

### XAÇMAZ



55 saylı Xaçmaz Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Eldəniz Adil oğlu Səlimovun seçicilərlə görüşləri uğurla davam edir. Növbəti görüş Qalağan, Sayad, Ərəb, Hacılar, Keymərəz, İlxıçı kənd seçiciləri ilə olub. Görüşdə E.Səlimov çıxış edib və seçiciləri maraqlandıran məsələlər cavablandırılıb.





Görüşdə çıxış edən xaçmazlılar 9 fevral parlament seçkilərində namizəd Eldəniz Səlimova səs verəcəklərini bildiriblər.

### ZƏRDAB

Fevralın 9-da keçiriləcək parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 92 saylı Zərdab-Ucar Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Urfan Əhmədov Pərvanlı, Məmmədqasımlı, Gödəkqobu və Yarməmmədbağı kənd seçiciləri ilə növbəti görüş keçirib.

Görüşdə çıxış edən deputatlığa namizəd Urfan Əhmədov bildirib ki, demokratik siyasi sistemə malik olan Azərbaycanda seçkilər yerli qanunvericiliyə və beynəlxalq standartlara uyğun keçirilir. Eyni zamanda, Azərbaycan siyasi palitrasının ən güclü ictimai-siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası mütəmadi qələbələr qazanır və seçki təc-



rübəsini daim artırır.

Urfan Əhmədov görüşdə Prezident İlham Əliyevin ölkədə həyata keçirdiyi dərin, sistemli və ardıcıl islahatlar kursu, onun əsas istiqamətləri və reallaşdırılma mexanizmləri haqqında ətraflı məlumat verib. O, qeyd edib ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Elə bu səbəbdən də, ölkəmizdə səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyi hökm sürür. Xalq, birmənalı olaraq, Prezident İlham Əliyevin həm daxili, həm də xarici siyasətini müdafiə edir. Dövlət başçısı da yalnız milli maraqlara söykənən müstəqil siyasət həyata keçirir.

Sonra seçicilər Yeni Azərbaycan Partiyasının namizədi və onun səsləndirdiyi fikirlər ətrafında mövqelərini bildiriblər. Onlar, bütün digər seçkilərdə olduğu kimi, növbəti parlament seçkilərində də YAP-ın seçicilərinin mütləq əksəriyyətinin etimadını qazanaraq, Milli Məclisdə ən yüksək səviyyədə təmsil olunacağına əminliklərini ifadə ediblər.

***ZÜMRÜD BAYRAMOVA,***
***NƏZAKƏT ƏLƏDDİNQIZI,***
***Rövşən RƏSULOV***

# Əsmər Əliyevanın seçicilərlə izdihamlı görüşü olub



***Dünən 46 saylı Şirvan şəhər seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Əsmər Əliyevanın təbliğat-təşviqat kampaniyası çərçivəsində icra hakimiyyəti tərəfindən ayrılmış Mədəniyyət Evində seçiciləri ilə görüşü olub. Qeyri-iş günü olmasına baxmayaraq Şirvan sakinləri Mədəniyyət Evinə millət vəkilliyinə namizəd Əsmər Əliyevanın görüşünə axın ediblər.***

25 yanvar 2020-ci il tarixdə saat 12:00 da baş tutan görüşdə çıxış edən Əsmər Əliyevanın vəkili Eyvaz Əhədov giriş sözü ilə çıxış edərək namizədin tərcümeyi-halı barədə ətraflı məlumat verib.

Sonra Əsmər Əliyeva seçiciləri qarşısında çıxış edərək bu qış günündə, istirahət günündə onunla görüşə gəldikləri üçün minnətdarlığını bildirib: “Azərbaycan bu gün çox önəmli siyasi kampaniya ərəfəsindədir. 5 il müddətinə ali qanunverici orqana - Milli Məclisə növbədənkənar seçkilər keçirilir. Ölkə başçımız cənab İlham Əliyevin apardığı islahatlara və gənclərə dövlət idarəçiliyində üstünlük verdiyi üçün öz potensialımla, bacarığımla seçki marafonuna qoşulub deputatlığa namizədliyimi Şirvan şəhərindən irəli sürdüm. Azərbaycanın hər bir bölgəsi mənim üçün doğmadır və əzizdir. Lakin mən sizlərlə birgə bu yola qədəm qoymağa qərar vermişəm. Bizim ailəliklə ürəyimiz Şirvanla döyünüb. Biz şirvanlıyıq və şirvanlıları özümüzə doğma bilirik. Seçki marafonu məni şirvanlılarla daha da doğma etdi, daha da yaxınlaşdırdı. Mən bu səmimi münasibəti yüksək qiymətləndirirəm. Mən Şirvanı qarış-qarış gəzmişəm. Əhali ilə görüşlər keçirmişəm. Cənab Prezidentimiz İlham Əliyevin regionların sosial, iqtisadi inkişafı dövlət proqramı çərçivəsində Şirvanda böyük quruculuq, abadlıq işləri görülüb. Yeni müəssisələr açılıb iş yerləri yaradılıb, insanların rifah halı yüksəlib. Bu uğurlar hamımızı sevindirir. Şirvanın inkişafı Azərbaycanın inkişafıdır. Bundan sonra Şirvanın inkişafı üçün dövlətimizin başçısı cənab İlham Əliyevlə, Birinci vitse-prezidentimiz Mehriban Əliyeva ilə sizlərin iştirakı ilə lahiyələr hazırlayıb həyata keçirəcəyik. Əhalini narahat edən problemlərin həllinə dövlətimizin köməyi ilə nail olacağıq. Mən sizləri 9 fevralda seçki məntəqələrinə gəlib ən layiqli namizədə səs verməyə çağırıram. Bu seçimlə 5 il parlamentdə sizi təmsil edəcək millət vəkilinizi müəyyən edəcəksiniz. Hər birinizə gələcək işlərinizdə uğurlar arzulayıram”.




Görüşdə çıxış edən Bakı şəhərindən qonaq gəlmiş yazıçı, publisist, bir neçə kitablar müəllifi Seymur Şeydayev, Şirvan şəhər ağsaqqallarından təqaüddə olan hərbçi zabit Hacı Yusif Rüstəmov Əsmər Əliyevanın hüquq elmində nailiyyətlərindən, cəmiyyət arasında müsbət keyfiyyətlərindən və ən əsası şirvanlıları Milli Məclisdə layiqli təmsil edəcəyindən ətraflı bəhs ediblər.

Sonra Əsmər Əliyevaya seçicilərin sual cavabları oldu. Şirvanlı seçicilər Əsmər Əliyevanı millət vəkili görmək arzularını 9 fevralda gerçəkləşdirəcəklərini bildirdilər.

***İqbal Mikayılov***

# Daşaltı əməliyyatından 28 il ötür



**_Bu gün Daşaltı əməliyyatından 28 il ötür. Daşaltı əməliyyatı Şuşa yaxınlığında yerləşən Daşaltı kəndinin azad edilməsi məqsədi ilə həyata keçirilən əməliyyatdır. Bu əməliyyat 1992-ci il 25 yanvarda axşam saat 20:00-da başlanıb və yanvarın 26-da axşam saatlarında uğursuzluqla başa çatıb. Şuşa yaxınlığında yerləşən Daşaltı kəndinin azad edilməsində, əməliyyatda yenicə yaranmış Azərbaycan Ordusunun könüllülərdən ibarət 3 bölüyü və Şuşa şəhərinin müdafiə taborunun döyüşçüləri iştirak edib._**



Taktiki səhvlər, qruplar arasında rabitə əlaqəsinin olmaması, əməliyyat sirrinin yayılması və bələdçilərin xəyanəti nəticəsində Nəbilər kəndi istiqamətindən Daşaltıya daxil olan Azərbaycan tağımları düşmənin pusqusuna düşərək, tamamilə məhv edilib. Kəndə daxil olmuş bir neçə tağım isə xeyli itki verərək, geri çəkilə bilib. Rəsmi məlumatlara görə, Daşaltı əməliyyatında Azərbaycan Ordusu 90 nəfərdən artıq itki verib, bundan başqa, onlarla əsgər hələ də itkin düşmüş sayılır.

Qeyd edək ki, 1992-ci ildə yanvarın ortasına doğru Qarabağda ağır vəziyyət yaranmışdı. Erməni qoşunları öz hərbi üstünlüyündən istifadə edərək, Dağlıq Qarabağda azərbaycanlılar məskunlaşan məntəqələri mühasirəyə alır və bir-birindən onları təcrid edir, sonra isə, müntəzəm surətdə bu məntəqələri tutmağa başlamışdılar. Bu məntəqələrin işğalı zamanı dinc əhali bu kəndlərdən qovulur, kəndləri isə yandırırdılar. 1991-ci ilin dekabrında Cəmilli, Kərkicahan və Meşəli kəndlərinin işğalı zamanı erməni silahlı dəstələri dinc əhaliyə qarşı hərbi cinayətlər törətmişdilər. Şuşanın ətrafında gərgin vəziyyət yaranmışdı. Şəhərin ətrafında olan erməni kəndləri erməni silahlı qruplaşmalarının dayaq məntəqələrinə çevirilmişdi, bu məntəqələrdən həm Şuşa şəhəri, həm yaxınlıqdakı azərbaycanlı kəndləri, həm də Şuşa-Laçın yolu daim atəşə tutulurdu. Daşaltı kəndi özü Şuşadan 3-4 kilometr məsafədə, Şuşa-Laçın magistral yolu boyunca yerləşir. Bu kənddəki atəş mövqelərindən erməni qoşunları Şuşaya, həmçinin, Şuşa-Laçın yolu üzrə hərəkət edən nəqliyyata daim atəş açırdı, bu isə Şuşada yerləşən Azərbaycan qoşunlarının təchizatında çətinliklər yaradırdı. Yaranmış vəziyyəti nəzərə alaraq, Azərbaycan komandanlığı Daşaltı kəndində erməni qoşunlarının atəş nöqtələrinin məhvi üzrə əməliyyat keçirmək qərarı qəbul etdi. Əməliyyata böyük əhəmiyyət verilirdi. Bütün cəbhə xətti üzrə erməni qoşunlarına diqqəti yayındıran zərbələri hazırlanırdı. Bu halda, əsas zərbələr Daşaltıya və Əsgərana vurulmalı idi. Ancaq Daşaltı əməliyyatı zamanı cəbhənin başqa sahələrində erməni qüvvələrinə heç bir zərbə endirilmədi. Əmrdən iki gün sonra Şuşaya hərbi texnikanın heç biri gəlmədi və iki ədəd texnika yolda sıradan çıxaraq, Laçında qaldı. Mənbələrə əsasən, daha iki ədəd zirehli texnika isə Qubadlıda qalıb.

Beləliklə, Daşaltı əməliyyatı uğursuzluqla nəticələnib.

İşğal altında olan torpaqlarımız tezliklə azad olacaqdır. Peşəkarlıqla yanaşı, ordunun maddi-texniki bazası da möhkəmlənib. Bu istiqamətdə, son illər ərzində, böyük işlər görülüb. Azərbaycan iqtisadiyyatının yüksəlişi, bütün sahələrdə olduğu kimi, ölkənin hərbi qüdrətinin də artmasında müsbət təsirini göstərib. Son bir neçə il ərzində, Azərbaycanda müasir və çox güclü Hərbi-Sənaye Kompleksi yaradılıb. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib və bunun nəticəsi olaraq, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik ordumuz var. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, "Ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik".

Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə, ordumuzun güclənməsi ilə müşayiət olunması Cənab Prezidentin öz vədinə sadiq olduğunu bir daha təsdiq edir. Bəli, bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və heç şübhəsiz ki, belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləməyə və üçrəngli bayrağımızı Dağlıq Qarabağda dalğalandırmağa qadirdir.

***Zümrüd BAYRAMOVA***

## Bakıda soyğunçuluq edən iki nəfər tutulub

Səbail Rayon Polis İdarəsinin 8-ci polis bölməsinə müraciət edən Bakı şəhər sakini Ə.Səfərov yanvarın 14-də yaşadığı evə gəlmiş iki tanışının açıq talama yolu ilə 218 manat pul apardıqlarını bildirib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, soyğunçuluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini V.Həziyev və Beyləqan rayon sakini, əvvəllər məhkum olunmuş Y.Məmmədov polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində müəyyən edilərək saxlanılıblar. Onlar törətdikləri cinayət əməlini etiraf ediblər. Faktla bağlı Səbail Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Evdən 5 min manatlıq qızıl əşyaları oğurlayan şəxslər yaxalanıb

Xəzər Rayon Polis İdarəsinin 3-cü polis bölməsinə yanvarın 23-də Binə qəsəbəsindəki evlərin birindən 5000 manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması barədə müraciət daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dərhal polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri Həsən Hüseynov və Əli Əmirxanov müəyyənləşdirilərək polis əməkdaşları tərəfindən saxlanılıb. Faktla bağlı araşdırma aparılır.



## Bambılı "boykotçu"- Əli Kərimli

RƏFİQƏ

***Yəqin ki, bambılı sözünün mənasını bilməyən yoxdur. Əbdürrəhman Vəzirovun 30 il öncə söylədiyi "bambılı" sözünü unutmayanlar var. Bilməyənlər üçün ərz edək ki, bambılı qeyri-ciddi, dəyərsiz, ləyaqətsiz adam və avara anlamındadır. Bu kiçik izahatdan sonra keçək mətləbə... Bu gün kim daha çox bambılılıq edirsə, satqın, quduz, iblis, cinayətkar olur? İnanıram ki, həmin an Əli Kərimli-Cəmil Həsənli deyənlər daha çox olar. Bir də bünövrədən, dünyaya gəldiyi gündən bambılılığı cəhənnəm, dəyərsizlikdə, ləyaqətsizlikdə, mənəviyyatsız və əxlaqsızlıqda bu iblislərə çatan ola bilməz.***

Bu, o satqınlardır ki, havadarlarının 5-10 qranta sataraq, xüsusi sifarişini yerinə yetirirlər. Ancaq bu kimi bədbəxtlər hələ də bilmirlər ki, havadarları onlardan araba atları kimi, yaxud siyasi ambisiyalarını həyata keçirmək məqsədilə birdəfəlik şpris kimi istifadə edirlər. Bu mənada, belə bambılı Ə.Kərimli və onun kimi bambılı şərəfsizlər harada olurlarsa olsunlar, elə şərəfsizdirlər. Odur ki, heç bunları belə bambılılara anlatmağın da faydası yoxdur. Atalar əbəs yerə deməyiblər ki, kor gözə sürmənin nə faydası? Onlar aldıqları milyonlar sayəsində özlərini korluğa vurublar. Ə.Kərimli kimi bambılıların Ermənistanın maraqlarına xidmət edən fikirləri sözügedən ölkənin kütləvi informasiya vasitələrinin "qəhrəmanına" çevrilib.

Bu bambılılar barədə düşünündə, hərdən bir sual da yaranır: onlar yalnız milyonlar qazanırlarmı? Əsla, yox. Onlar həm də ümumxalq nifrətini qazanırlar ki, elə bu nifrətin də altında qalacaq və 26 ilin kirini-pasını üzərində daşıyacaqlar. Bir də şüurun, təfəkkürün və mənəviyyatın kirlənməsi dağıdıcı müxalifətin sağalmaz xəstəliyidir. Başda AXCP sədri Ə.Kərimli olmaqla, dağıdıcı müxalifət təmsilçiləri otuz ilə yaxın bir müddətdə yoluxduqları, pozuculuğu, inkarçılığı, hər şeyə qara rəngdə baxmaq mərəzini cəmiyyətə bulaşdırmaq istəsələr də, heç nəyə nail ola bilmirlər. Məhz bu sağalmaz xəstəliyə düçar olan Ə.Kərimli ənənəsinə sadiq qalaraq, yenə də seçkilər ərəfəsi iyirmi altı illik kirli tarixini göstərməkdədir. Fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə əlaqədar irəliyə sürülmüş təşəbbüsə münasibəti də, bir daha təsdiq etdi ki, siyasi, ictimai və əxlaqi məfkurəsi zəif olan Ə.Kərimli üçün şəxsi mənafe və ambisiyalar "ən ali" dəyərlərdir. Əgər belə olmasaydı, siyasəti siyasətbazlıqla qarışdıran, alver predmetinə çevirən, öz məkrli niyyətlərini gerçəkləşdirmək üçün bütün çirkin vasitələrdən istifadə edən AXCP sədri vaxtilə onu və əqidədaşlarını "genetik xəstə faşist" adlandıran keçmiş korrupsioner nazir, qisasçı Əli İnsanovla bir masaya oturub, parlament seçkiləri ilə bağlı məsələləri müzakirə etməzdi.

Bütün bunların başında sosial dayaqları plintusdan da aşağı olan "boykotçu bambılı" Ə.Kərimli özü də yaxşı bilir ki, budəfəki parlament seçkilərinə qatılacağı təqdirdə, oradan da məğlub vəziyyətdə ayrılacaq. Ona görə də, bütün çirkin vasitələrdən, qarayaxma kampaniyasından istifadə edərək, məsələnin əsl mahiyyətini cəmiyyətdən və qrant aldığı xarici havadarlarından gizlətməyə çalışır. Ancaq Ə.Kərimli cidanı çuvalda gizlədə bilməzsən. Nə qədər gec deyil, bu millət, Vətən və dövlət xainini siyasət arenası olmaqla yanaşı, həm də cəmiyyətdən təcrid etməyin zamanı çatıb. Çünki ya gec, ya da tez, o, törətdiyi bütün rüsvayçı, satqınçılıq və kirli əməllərinə görə cavab verməyə məhkumdur.

# “Köhnə hamam, köhnə tas” xarakterli xaraktersizlik

## *Yaxud AŞPA gəldi, “əzabkeş” radikallar daha da “məzlumlaşdı”*



*Dağıdıcı müxalifət “liderləri”nin xaraktersizlikləri onların özlərini xarici təşkilatlar qarşısında “erməni xəstəliyi simptomu” kimi tanınan “əzabkeş” və “məzlum” kimi tanıtmaları bu dəfə də sübuta yetdi. Əslində, AŞPA-nın seçki missiyasının Bakiya səfəri zamanı onların müxalifət təmsilçiləri ilə görüş keçirmələrində təəccüblü heç nə yoxdur. Yəni xüsusilə, seçkiöncəsi belə görüşlərin keçirilməsi demokratik mühitin tərkib hissəsi kimi anlaşılmalıdır. Amma...*

### Ağlaşma qurmaları, həqiqətən də, ictimai rəydə onlara qarşı istehza baxışlarını daha da gücləndirdi

Sözügedən görüş əsnasında seçkiyə gedən müxalifətçilərlə yanaşı, seçkiyə getməyən müxalifətçilərin, yəni öz təbirlərincə, “boykot taktikası” tətbiq edib, belə bir əhəmiyyətli prosesdə iştirak etməkdən boyun qaçıran, əslində isə, zəifliklərini etiraf edən fərdlərin ətəklərini başlarına çəkərək, sözün əsl mənasında və ağlaşma qurmaları, həqiqətən də, ictimai rəydə onlara qarşı istehza baxışlarını daha da gücləndirdi.

Məsələ ondadır ki, AŞPA-nın seçki missiyası ilə görüşdə, məhz dövlətçilik maraqlarına qarşı sifarişli siyasət həyata keçirən partiyalar və qurumlar iştirak ediblər. Müsavat partiyasının başqanı, namizədliyi qeydə alınsa da, hələ də narazılıq edən, öz partiyasının qurultayında saxtakarlıq yolları ilə başqanlıq kürsüsünü ələ keçirən Arif Hacılı, “boykotçuluq” və siyasi həyasızlıq nümunəsinin bariz təcəssümçüsü, AXCP sədri Əli Kərimli, həbsdən azadlığa çıxar-çıxmaz Qərb dairələrinə minnətdarlıq edən və özünə “Haqq-Ədalət Partiyası” adlı təşkilat yaradan Əli İnsanov, “ReAl” partiyasının hərdəmxəyal sədri İlqar Məmmədov və əlbəttə ki, destruktiv düşərgənin “primadonnası”, harada aş, orada baş olan “Milli Şura”nın koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəyli!

### Necə deyərlər, “molla aşı qarasız yeməz”...

Söz yox ki, AŞPA əvvəlcədən onları məlumatlandırmaqla bildirib ki, görüşün məqsədi və mövzusu seçkiqabağı vəziyyət, namizədlərin irəli sürülməsi, qeydə alınması ilə bağlıdır və belə bir mövzuda radikallara nə lazımdır? Necə deyərlər, “molla aşı qarasız yeməz” məsəli kimi.

Yeri gəlmişkən, əgər mövzu, həqiqətən də, seçkilərlə bağlı olubsa, orada seçkilərə qatılan müsavatçıları və “realçıları” çıxmaq, bəlkə də çıxmamaq şərti ilə seçkilərə qatılmayan cəbhəçilərlə insanovçuların hansı maraqları dayanıb? Çünki mətbuatdan da öyrəndiyimiz kimi, mövzulardan biri də namizədlərin irəli sürülməsi və qeydə alınması mərhələsində guya ki, müşahidə olunan “qanun pozuntuları” və digər (?-R.N.) məsələlər də olub. Baxın, ölkədə həm hakimiyyəti təmsil edən, həm müstəqil, həm də müxalifətçi namizədlərin təbliğat-təşviqat işləri aparılır, bütün namizədlər bu prosesdə azad və sərbəst iştirak etməklə yanaşı, həm də MSK tərəfindən yaradılan imkanlardan maksimum şəkildə istifadə edirlər, heç bir şikayət və s. kimi hallar baş verməyib, amma bunlar AŞPA-nı görər-görməz, dərhal üzgözlərini cırıb, yaxalarını dartıblar.

### AŞPA-nın seçki missiyası onlara sual edibmi ki..?

Maraqlıdır ki, görəsən, AŞPA-nın seçki missiyası seçkiləri “boykot” edən Ə.Kərimliyə, G.Hacıbəyliyə sual edibmi ki, onların və yandaşlarının bu addımları mövcud situasiyaya heç bir təsir göstərə bilməz? Yaxud anlada bilibmi ki, həmin “taktika”, əslində, onların zəifliklərinin və uğursuzluqlarının məntiqi sübutudur? İnanırıq ki, onlara belə bir sual verilməyib, əksinə, Azərbaycanın demokratik seçki mühitinə qarşı əsassız, məntiqsiz, sübutsuz-dəlilsiz “kompromatlar” toplanılıb ki, sonradan, yəni seçkidən sonra dərhal digər bir Avropa qurumu - ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu həmin “kompromatları” qərəzlə xalqın üzünə oxusun. Amma bütün bunlar əbəsdir. Çünki xalq kimin kim olduğunu çoxdan və əla bilir, bundan sonra da biləcək...

### Arif Hacılı nəyə görə etiraf etmir ki, partiyadaxili seçkilərdə saxta, yalan, şərh-böhtançılıq yolları ilə “başqan” olub?

Qaldı ki, Müsavatın saxta yollarla başqanlıq kürsüsünü ələ keçirən, hazırda da adı siyasi mühacir biznesində hallanan “başqanı” A.Hacılıya və onun Avropanın seçki missiyası qarşısındakı ağlaşmalarına - bax, ona bir sual ünvanlamaq lazımdır ki, A.Hacılı, sənin qarşına siyasəti biznesə çevirən onlarla faktlar qoyulsa da, bunları təkzib etməklə, nəyə nail olmaq istəyirsən? Nəyə görə etiraf etmirsən ki, sən partiyadaxili seçkilərdə saxta, yalan, şər-böhtançılıq yolları ilə “başqan” olmusan? Bəlkə ömründə bircə dəfə namərdlik etməyib, dürüst danışasan? Bizcə, bu da olmayacaq. Ona görə ki, dürüst olmayanlar bu dəfə də bir “dam” altında oturub, bir-birilərinin nəfəslərini çəkiblər ciyərlərinə. Necə deyərlər, bir ağızdan ağlaşıblar. Ağlaşsınlar görək, haraya qədər ağlaşacaqlar...

**Rövşən NURƏDDİNOĞLU**

---

# Davam edir 37 - ermənilərin Paşinyan hakimiyyətini devirmək üçün başqa çıxış yolları qalmayıb



### “Armenianreport”: “Artıq Ermənistan vətəndaşlarında sovet quruluşunun totalitar qayıdışı hissləri yaranmaqdadır”

“Divarların da qulağı var” deyilən bir məsəl var. Ermənistanın relyefini də nəzərə alsaq, artıq deyə bilərik ki, bizim dağların da qulaqları var”. Bu barədə “armenianreport.am”-ın analitiki Tevos Arşakyan özünün “Paşinyan Ermənistanı və ya 1937-ci ilə doğru yuvarlanma” məqaləsində ölkə parlamentinin polisin telefon danışıqlarını dinləməsinə yaşıl işıq yandıran qanun düzəlişini şərh edərkən bildirib. SİTAT: “Ümidvaram ki, Ermənistan polisinin ölkə vətəndaşlarının telefon danışıqlarına total şəkildə qulaq asmaq haqqında qəbul edilən qərar bizim oxucuların böyük əksəriyyətində bu assosiasiyanı əxz etdirir. Beləliklə, parlament ictimai etirazlara baxmayaraq, polisin operativ-axtarış fəaliyyəti çərçivəsində qanunvericilikdə düzəliş etdi və polis sərbəst şəkildə vətəndaşların telefon danışıqlarını dinləyəcək. Dəyişikliyin müəllifləri isə “Mənim addımım” hakim fraksiyasının deputatları Armen Xaçatryan və Sipan Paşinyandır. Yəni daha öncələr müvafiq hüquqa yalnız Milli Təhlükəsizlik Xidməti malik idisə, artıq indi sözügedən düzəliş polisə şəxsi texniki infrastrukturu vasitəsi ilə dinləmələrə şərait yaradır”.

### Tevos Arşakyan: “Hakimiyyət cəmiyyətdə etirazçılıq mühitinin artmasından qorxuya düşüb, eləcə də, dünənki iqtidarçıların bu gün müxalifətdə konsolidasiyasından da hürkür”

Erməni analitikinə görə, diqqətçəkici məqamlardan biri də bu idi ki, həmin layihə ilə bağlı hökumət mənfi qərar vermişdi və buna görə, onda zəif ümid yaranmışdı ki, hökumət vətəndaşların təqibinə səbəb olan və total dinləmələrə müşahidə ediləcək düzəlişi rədd edəcək. Lakin mənfi münasibət heç də vətəndaşların hüquqlarının tapdanmasına görə deyilmiş. Sən demə, düzəlişin implementasiyası polisin xüsusi texnika ilə təchiz edilməsi üçün böyük maliyyə xərcləri tələb edir. Ancaq buna da baxmayaraq, qanun 97 səslə lehinə, 20 səslə əleyhinə və 1 nəfərin bitərəf qalması ilə qəbul edildi...

Arşakyan daha sonra yazır ki, onların hər biri yalnız MTX-nin deyil, artıq polisin də ciddi nəzarəti altında olacaqlar. “Ona görə ki, hakimiyyət cəmiyyətdə etirazçılıq mühitinin artmasından qorxuya düşüb, eləcə də, dünənki iqtidarçıların bu gün müxalifətdə konsolidasiyasından da hürkür. Fəaliyyətdə olan hakimiyyətin reytinqi sürətlə aşağı düşür, ona görə də, onlar cəhd edirlər ki, hər şeyi, eləcə də, bütün Ermənistanı nəzarətləri altına alsınlar. Biz, bunu Konstitusiya Məhkəməsi ilə bağlı yaşanılanların prinsipində də gördük” deyə erməni şərhçisi yazır.

### “Hökumət və Paşinyanın nəzarəti altında olan parlament total nəzarətin əhatə dairəsini genişləndiriblər... Paşinyan xilas ola bilməyəcək”

SİTAT: “Artıq hökumət və Paşinyanın nəzarəti altında olan parlament total nəzarətin əhatə dairəsini genişləndiriblər... Yeni düzəlişlər sui-istifadələrə yol açmaqla yanaşı, yeni hakimiyyət total izləmələri yalnız müxalifətçilərə qarşı deyil, həm də jurnalistlərə, insan hüquqları üzrə hərəkat fəallarına, hətta şablonsuz düşünən insanlara qarşı tətbiq edəcək. O cümlədən, sadə vətəndaşlar da telefon danışıqları izlənəcək ki, həmin danışıqlardan kompromatlar çıxarsınlar.”

Erməni siyasi analitiki, ona da ümidvardır ki, artıq Ermənistan vətəndaşlarında sovet quruluşunun totalitar qayıdışı hissləri yaranmaqdadır. O, vaxtilə hər şeyi görən və eşidən “KQB”-nin telefon danışıqlarını dinləməsi reallığını da xatırladaraq yazır ki, həmin vaxtlar insanlar mətbəxlərdə yığışırdılar ki, siyasi prosesləri müzakirə etsinlər: “Lakin kim düşünə bilərdi ki, həmin vaxtlar geriyə dönəcək, həm də özünü demokratik adlandıran, insan azadlığı və hüquqlarının müdafiəsi uğrunda inqilabi yolla hakimiyyətə gəldiklərini iddia edən insanlar bunu Ermənistanda tətbiq edəcəklər?! Lakin hakimiyyət bilməyə məhkumdur və qulağından sırğa edib asmalıdır ki, hətta cəmiyyəti total nəzarətə götürmək və vətəndaşların telefon danışıqlarını kütləvi şəkildə dinləmək amili, hələ ki, heç bir total quruluşu xilas edə bilməyib, Paşinyanı da xilas edə bilməyəcək...”

Beləliklə, fakt budur ki, müəllif sözügedən siyasi şərhində Ermənistanı 1937-ci ilə bənzədir və bu kimi məsələlər artan xalq, vətəndaş üsyanını daha da yaxınlaşdırır. Çünki sadə ermənilərin Paşinyan hakimiyyətini devirmək üçün başqa çıxış yolları da qalmayıb.

**Rövşən NURƏDDİNOĞLU**



# Zavallı ölkə, çaşqın baş nazir

## *Sarkisyanın aqibəti Paşinyanın da başında çatlayacaq*

“Əgər parlament fraksiyası məni seçməsə, heç kimi seçməyəcək. Baş nazirin seçiləcəyi gün bütün erməni xalqı meydanda olacaq. Qoy xalqın iradəsinin yerinə yetirməməyə çalışsınlar”. Bu sözləri 2018-ci ildə Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

Serj Sarkisyanın 10 illik prezidentliyi Ermənistan xalqının yaddaşında qorxulu bir kabus kimi həkk olunsa da, bu kabusu indi də Nikol Paşinyan yaradır. Ermənistanla bağlı proqnozlar özünü tam doğrultdu. Bu, belə də olmalı idi. Çünki istər Paşinyan, istərsə də Sarkisyan eyni düşüncəyə malik olan Ermənistan xalqının yaddaşında qorxulu bir kabus kimi həkk olunub.

Belə ki, Ermənistanda son günlər baş verənlər də bunu təsdiqləyir. Bu gün erməni müxalifəti və erməni ziyalıları açıq şəkildə qeyd edirlər ki, məhz Sarkisyanın 10 illik prezidentlik fəaliyyəti erməni xalqı üçün, ilk növbədə, iqtisadi böhrana səbəb olub. Bu gün ermənilər özləri qeyd edirlər ki, vaxtilə Ermənistandan əhali ədədi silsilə ilə baş götürüb qaçırdısa, indi artıq həndəsi silsilə ilə ölkəni tərk edir. Eyni zamanda, xalq onun da fərqindədir ki, Ermənistanda böhran daha da dərinləşəcək. Çünki xalq görür ki, onu bu vəziyyətə salan bir rejim hakimiyyətdə baş nazir postunu zəbt edən Paşinyan elə Sarkisyanın eyni üzüdür. Bu, o deməkdir ki, əgər 10 illik hakimiyyəti dövründə Sarkisyan ölkəni iqtisadi iflas, təcrid vəziyyətinə gətirdisə, Paşinyan bunu daha da dərinləşdirəcək.

“Jamanak” qəzetinin yazdığına görə, məqsəd Ermənistanda prezident üsul-idarəsinə qayıdış etməkdir. Nəşr bildirib ki, güclü prezidentlik idarəsi Konstitusiya Məhkəməsinin üzvlərini istefaya göndərə biləcək. Ekspertlər Nikol Paşinyanın bu islahatlarla öz kövrək hakimiyyətini möhkəmləndirmək niyyəti güddüyünü vurğulayırlar.

### Qabil Hüseynli: “Ölkə müxalifəti mürəkkəb vəziyyətdən istifadə edərək tərəfdarlarını artırıb və baş nazirə qarşı ciddi müqavimət formalaşdırıb”

Politoloq Qabil Hüseynlinin sözlərinə görə, Paşinyan düşünür ki, prezidentlik sistemində daha çox səlahiyyəti öz əlində cəmləyəcək: “Konstitusiyaya dəyişiklik olarsa, Paşinyan hakimiyyətin bütün qollarına nəzarəti öz əlinə alacaq və “güclü hakimiyyət” quracaq. Daha doğrusu, baş nazir belə olacağını zənn edir. İnqilab yolu ilə hakimiyyətə gəlmiş Paşinyan prezident üsul-idarəsinə keçməklə, avtoritar rejim qurmaq niyyətindədir. “İslahatlar” ideyası birbaşa baş nazirin siyasi ambisiyaları ilə bağlıdır. Paşinyan baş nazir postunda reytinq qazana bilmədi, əksinə, daha da nüfuzdan düşdü. İndiki halda, Paşinyan hakimiyyətin digər qollarına təzyiq göstərə, öz kadrlarını yerləşdirə bilmir. Prezident üsul-idarəsinə keçid ona öz siyasi maraqlarını təmin etməyə imkan verəcək. Bununla da mərkəzi hakimiyyəti bir əldə cəmləyəcək”.

Siyasi şərhçinin sözlərinə görə, dəyişikliyin baş tutacağı təqdirdə Ermənistanda yenidən prezident seçkiləri keçirilməlidir: “Burada seçki problemi ortaya çıxa bilər. Ermənistan cəmiyyətində Paşinyana qarşı ciddi narazılıq mövcuddur. Məlum olduğu kimi, ölkə müxalifəti mürəkkəb vəziyyətdən istifadə edərək, tərəfdarlarını artırıb və baş nazirə qarşı ciddi müqavimət formalaşdırıb. Onu da nəzərə alaq ki, indiki məqamda prezident üsul-idarəsinə keçid referendum yolu ilə mümkündür. Lakin narazı xalqın qatılacağı referendumdan çıxan nəticə Paşinyanın istəkləri ilə üstüstə düşməyə bilər. Referendum olsa belə, çox qızğın prezident seçkilərinin şahidi olacağıq. Paşinyan olduqca riskli yola qədəm qoyub. Hər halda, idarəetmədə sistem dəyişikliyi Ermənistanda ciddi təlatümlərə gətirib çıxara bilər”.

“Jamanak” qəzetinin yazdığına görə, Ermənistanda yanvarın 21-dən başlayaraq fermerlərin etiraz mitinqləri keçirilir. Onların baş nazir Nikol Paşinyanla görüşmək cəhdləri uğursuzluqla nəticələnib. Belə ki, baş nazir etirazçıların dialoq təklifinə məhəl qoymayıb. Həmçinin, fermerlərin etirazlarının artıq ölkənin regionlarına da sirayət etdiyi barədə məlumatlar gəlməkdədir. Qəzet yazır ki, ötən gün İrəvan - Gümrü yolunu bağlayan Şirak fermerlərinə polisin müdaxilə etdiyi bildirilir. Maraqlıdır ki, bir müddət əvvəl, hakimiyyətin ölkədə orta təbəqə yaratmaq barədə dedikləri ilə indiki əməlləri heç cür üstüstə düşmür. Aldadıldıqlarını dilə gətirən həmin təbəqə nümayəndələri hökuməti açıq şəkildə tənqid etməkdən çəkinmirlər: “Mənim fermamda təkcə bir heyvan qalıb ki, bu da mənəm, çünki vaxtilə Paşinyanın hakimiyyətə gəlməsini dəstəkləyənlərdən biri olmuşam” deyə etirazçılardan biri yerli televiziyaya verdiyi açıqlamada bildirib. Qeyd edək ki, İrəvandakı fermer etirazının artıq geniş vüsət almağa doğru getməsinə baxmayaraq, Paşinyan hələ də güc tətbiq etməyə tərəddüd edir.







### Ermənistanda vəziyyətin bu həddə çatma səbəbləri

Bu səbəbləri uzun-uzadı araşdırmağa ehtiyac da yoxdur. Ekspertlərin sözlərinə görə, Ermənistanın bu vəziyyətə düşməsinin əsas səbəbkarı Serj Sarkisyan və onun davamçısı Paşinyandır və bu vəziyyətdən çıxış yolu, məntiqə üstünlük verərək, işğalçılıq siyasətindən imtina edib, Azərbaycan torpaqlarını azad etməkdir. Amma düşünüləsi deyil ki, Ermənistanın bugünkü hakimiyyəti belə bir məntiqi addım atıb, xalqını üzləşdiyi uçurumdan xilas etsin. Çünki indiki Ermənistan hakimiyyəti faşist və kriminal rejimdir. Bunun baş verməyəcəyi və proseslərin bu cür dava edəcəyi təqdirdə, Ermənistan böyük addımlarla uçuruma doğru irəliləyir.

### Qriqori Trofimçuk: “Ermənistanın hazırkı rəhbərliyinə Moskvanın inamı azalmaqda davam edir”

Bu günlərdə “Tert am” satına danışan rusiyalı siyasətçi Qriqori Trofimçuk Paşinyan hökumətinin Rusiyada artıq “səriştəsiz” kimi qəbul edildiyini etiraf edib. Trofimçukin sözlərinə görə, bu gün Rusiyanın ekspert dairəsində “Rusiya-Ermənistan münasibətləri” və “Nikol Paşinyan” kimi anlayışlar getdikcə daha çox paylaşılır. Bununla bağlı rusiyalı siyasətçi deyir: “Bu gün iki ölkə arasındakı əməkdaşlıqda elə bir dəyişiklik olmasa da, Ermənistanın hazırkı rəhbərliyinə Moskvanın inamı azalmaqda davam edir”. Fikirlərini əsaslandırmaq üçün rusiyalı siyasətçi tutarlı faktlar da gətirir. Məsələn, belə faktlardan biri kimi, Trofimçuk Paşinyanın sabiq prezident Serj Sarkisyan tərəfindən dövlət aktivlərinin qanunsuz ölkədən çıxarılmasının qarşısını almaq üçün ABŞ Federal Təhqiqat Bürosundan kömək istəməsini göstərir: “Sual yaranır: bəs, belə olan halda, Paşinyanın rəhbərliyi altında Ermənistanın xüsusi xidmət orqanları nə işlə məşğuldurlar? Başqa bir misal, niyə Ermənistanın üzv olduğu KTMT ölkələrinin sirlərini ifşa etməlidir? Belə situasiyada qaz qiymətilə bağlı Ermənistanın qaldırdığı hay-həşir, ən azı, üçüncü dərəcəli görünür. Doğrudur, bu məsələ iqtisadiyyatla əlaqəlidir və bütövlükdə, Ermənistandakı iqtisadi vəziyyət indi o qədər də ürəkaçan deyil. Amma erməni tərəfi bu problemin digər tərəfini başa düşməlidir: Rusiya olmasa, başqa dövlət Ermənistana qazı, ən azı, ikiqat qiymətə satacaq”.

### Sarkisyanın aqibəti Paşinyanın da başında çatlayacaq

Ermənistanın bu duruma düşməsinin ən əsas səbəbi isə, Paşinyanın sərsəm və absurd fikirləri ilə münaqişənin nizamlanması ilə bağlı danışıqları yubatmaq istəyidir. Ekspertlərin sözlərinə görə, belə vəziyyətdə olan Ermənistanla inkişaf etmiş Azərbaycanın danışıqlara getməsi, bu ölkə üçün faciəli ola bilər. Ona görə də, Paşinyan vaxt udmaq istəyir. N.Paşinyan bilir ki, danışıqlar prosesində qondarma rejimin iştirakı təklifini Azərbaycan heç vaxt qəbul etməyəcək və proses bir az da uzana bilər. Elə bu səbəbdən də, Ermənistan bumeranq effekti ilə üzləşib və Azərbaycanın iqtisadi, enerji və nəqliyyat blokadası siyasətinin hədəfindədir. Paşinyan bu səbəbin aradan qaldırılması və bununla da, üzücü təcrid siyasətindən qurtulmaq naminə, hələ ki, heç bir addım atmır. Hətta bir çox hallarda, zorla hakimiyyətdən saldığı Sarkisyandan çox “Sarkisyan” olmaq istəyir. Ermənistanın yeni baş nazirinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı səslədirdiyi son fikirlər psixoloji sayıqlamalardan başqa bir şey deyil. Görünür, gərgin inqilabi proseslərin mərkəzində yer almış Paşinyanın bu qovhaqovda ən çox zərər görmüş orqanı, məhz başı olub. Bəs, Ermənistanın yeni rəhbərliyinin düşdüyü labirintdən çıxış yolu varmı? Bəli, var. Bu yolu növbəti dəfə göstərən Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdi ki, Ermənistanın yeni rəhbərliyi sələflərinin səhvlərini təkrar etməməlidir, konstruktiv danışıqlar aparmalıdır, Azərbaycan torpaqlarını işğaldan azad etməlidir. Bəli, bu, Ermənistanın yeganə nicat yoludur. Paşinyan bunun əksini edərsə, Sarkisyanın yolu ilə getmiş olacaq. Sözün bütün mənalarında...

Bir sözlə, Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq. Artıq bu faktın gerçəkliyi göz önündədir...

**A.SƏMƏDOVA**

SƏS
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
Son səhifə
26 yanvar

# İtaliya "Facebook"u 5 milyon avro cərimələyəcək?




İtaliya Antiinhisar Komitəsi istifadəçi məlumatlarının istifadəsi ilə bağlı tam məlumat verməməsinə görə "Facebook"a qarşı sanksiya tətbiqinə başlayıb. ANSA agentliyi xəbər verir ki, Antiinhisar Komitəsi şirkətin sosial şəbəkələrdə qeydiyyata alındıqdan sonra istifadəçi məlumatlarının toplanması və kommersiya istifadəsi ilə bağlı kifayət qədər məlumat vermədiyini müəyyən edib. "Facebook" şirkətinə bununla bağlı müraciət göndərilsə də, hələ ki, heç bir cavab gəlməyib. Sanksiya tətbiqindən əlavə "Facebook" dəymiş ziyanın ödənməsi üçün 5 milyon avroya qədər cərimə ilə də üzləşə bilər.

# Ömrü uzadan 7 tövsiyə



*Tanınmış amerikalı həkim-kardioloq Klayd Yansi insanın uzunömürlü olmasını təmin edə biləcək tövsiyələr tərtib edib. Həkimin fikrincə, insan orqanizmi əvvəlcədən uzun ömür sürməyə proqramlaşdırılıb. Ömrü qısaldan sağlamlığa ziyan vuran vərdişlərdir. "MedikForum"un yaydığı xəbərdə deyilir ki, Klayd Yansinin fikrincə, bu qaydalar insanın 90-cı və 100-cü yubileyini qeyd etməyə kömək edə bilər.*

Fiziki fəallıq. Həkim qaçış, üzgüçülük, intensiv yerimə, idman oyunları ilə məşğul olmağı tövsiyə edir. Kardioloq bildirir ki, fiziki fəallığın çatışmazlığı insanın ömrünü 4 il qısaldır. Ürək xəstəlikləri və ya insult azhərəkətli adamlarda daha çox inkişaf edir.

Xolesterini nəzarətdə saxlamaq. Xolesterinin miqdarı artması damarlarda ürək-damar patologiyaları riskini artıran düyünlərin əmələ gəlməsinə səbəb olur. Odur ki, xolesterinin 5 vahiddən yuxarı qalxmasına imkan vermək olmaz.

Rasiona diqqət yetirmək. Uzun ömür sürmək üçün rasiondakı şirniyyat, fastfud və qazlaşdırılmış içkiləri məhdudlaşdırmaq lazımdır. Sellüloz, dənli bitkilər, təzə meyvə-tərəvəzi isə çox yemək lazımdır.

Təzyiqin yüksəlməsinə yol verməmək. Yüksək təzyiqi təsadüfən "sakit qatil" adlandırmırlar. Arterial hipertenziyası olan insanlarda insult riski 40 faiz, infarkt ehtimalı isə 25 faiz yüksəkdir. 45 yaşına çatandan sonra təzyiqi nəzarətdə saxlamaq xüsusilə vacibdir.

Çəkinin artmasına yol verməmək. Həkim-kardioloq xatırladıb ki, piylənmə ürək və insult xəstəliklərinin yaranmasının əsas səbəbidir. Artıq çəki ömür müddətini 5 il qısaldır.

Diabetin profilaktikasını aparmaq. Diabetdən əziyyət çəkən adamlarda təzyiq, damar, ürək, qan dövranı sistemi ilə bağlı problemlər ehtimalı artır. Piylənməyə yol vermək olmaz, çünki bu xəstəliyin həlledici inkişaf amillərindən biri məhz piylənmədir.

Siqaretçəkmədən imtina etmək. Siqaretçəkmə qlobal miqyasda ölüm amillərinin əhəmiyyət dərəcəsinə görə hipertoniyadan sonra ikincidir. Siqaretçəkmə təkcə bilavasitə tənəffüs sistemi və ağciyər xərçəngi xəstəliklərinə meyilli olan siqaret çəkənləri deyil, həm də siqaret çəkənlərin çevrəsində olan və passiv siqaretçəkmədən əziyyət çəkən insanları öldürür. Klayd Yansi bildirir ki, siqaret çəkən bu zərərli vərdişdən yaxa qurtarandan 15 il sonra onun üçün vaxtsız ölüm riski siqaret çəkməyən insanın ölüm riskinə bərabər olur.

# Yuxuya getməyə kömək edən qidalar



Diyetoloqlar müəyyən saatlardan sonra yemək vərdişini aradan qaldırmağı məsləhət görürlər, çünki yatmazdan qabaq qida qəbulu müəyyən narahatlığa səbəb olur.

Belə ki, bəzi qidaların gecə yeyilməsi orqanizmin daha rahat yuxuya getməsini təmin edir. Həmin siyahıya pomidor, zeytun yağı, badam, düyü, kahı, albalı şirəsi, çobanyastığı çayı və bal daxildir. Çobanyastığı çayının tərkibindəki qliserin maddəsi sinirləri və əzələləri sakitləşdirərək yuxu gətirir. Tərkibində çoxlu antioksidant olan pomidor bədəndə maye yığılması və iltihablaşmanın qarşısını alır, orqanizmdə melatonin sintezini sürətləndirdiyinə görə 1 stəkan albalı şirəsi içmək daha tez yuxuya getməyə kömək edir.

# "Tokio 2020" Olimpiya və Paralimpiya Oyunlarının açılışına altı ay qalır



Tədbiri açıq elan edən Tokionun qubernatoru Yuriko Koike bəyan edib ki, Olimpiya Oyunlarına hazırlıq planda nəzərdə tutulduğu ardıcıllıqla davam edir. Bəzi problemlərin hələ də qalmasına baxmayaraq, ictimaiyyət bu yarışlara böyük maraq göstərir. Olimpiya məşəli estafetinin martda başlayacağını xatırladan xanım qubernator qarşıdakı altı ayın bir göz qırpımında keçəcəyini vurğulayıb, hamını yarışların uğurlu alınması üçün hamını əməkdaşlığa çağırıb. Y.Koike əmin olduğunu bildirib ki, bütün dünyanın böyük maraqla izləyəcəyi yarışlar yüksək səviyyədə keçirilərək, əsl idman, sülh və dostluq bayramına çevriləcək.

**Tokioda keçiriləcək Yay Olimpiya və Paralimpiya oyunlarının açılış mərasiminə altı ay qalması münasibətilə yanvarın 24-də təşkilatçılar tərəfindən böyük atəşfəşanlıq təşkil edilib. Tokio körfəzində quraşdırılmış Olimpiya embleminin işıqları yandırılıb.**

# "Barselona" 17 yaşlı dünya çempionunu alır



"Barselona" heyətini yeni futbolçu ilə gücləndirməyə hazırlaşır. İspaniya mətbuatının yazdığına görə, Kataloniya klubu "Koritiba"nın 17 yaşlı müdafiəçisi Yan Kouto ilə razılaşıb. La Liqa təmsilçisi braziliyalı futbolçu üçün 5 milyon avro xərcləməli olacaq. Lakin o, 18 yaşı tamam olanadək "Koritiba"da çıxış etməli olacaq.

Qeyd edək ki, J.Kouto milli komandanın heyətində noyabr ayında keçirilən gənclər arasında dünya çempionatının qalibi olub.

# Koronavirusdan ölənlərin sayı 41-ə çatdı

Çində aşkarlanan koronavirusun indiyədək müəyyən olunmamış növünə (2019-nCoV) yoluxanların sayı dünya üzrə 1316 nəfərə çatıb. Çin Dövlət Səhiyyə Komissiyası xəbər verir ki, Çində virusa yoluxanların sayı 1297 nəfərə, ölüm hallarının sayı isə 41-ə yüksəlib. Avstraliya, Fransa və Nepalda da koronavirusun yeni növünə yoluxma faktları qeydə alınıb. Bundan əvvəl isə Tailand, Cənubi Koreya, Yaponiya, Vyetnam, Sinqapur, ABŞ-da da virusa yoluxma halları təsdiqlənmişdi.

# Elan

**Salyan rayonu Yenikend kend sakini Hüseyenov Ramil Qardaş oğluna mexsus torpaq sahesine 07.03.2018 ci il tarixde verilmiş 1223244 nömreli Çıxarış itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**